## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİDİR

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə...



Bax səh. 4

## LEONİD YAKUBOVİÇ: HEYDƏR ƏLİYEV YÜKSƏK İNTELLEKT, GÜCLÜ XARİZMA SAHİBİ İDİ

"Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda yalnız iki və ya üç bu cür adamla rastlaşmışam". Rusiyalı məşhur teleaparıcı Leonid Yakuboviç "Moskva-Baku" portalına müsahibəsində belə deyib. AZƏRTAC xəbər verir ki, L.Yakuboviç Azərbaycanın Ümummilli lideri Heydər Əliyevlə görüşünü xatırlayaraq deyib: - Bu hadisə çoxdan, lap çoxdan olub. Hətta hansı ildə görüşdüyümüzü unutmuşam. Bizim "Pole çudes" komandası Bakıya gəlmişdi, idman zalında oyun keçirdik, ertəsi gün Heydər Əliyevlə...




Bax səh. 2



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 08 dekabr 2018-ci il, şənbə / № 233 (5360). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# MDB dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı Azərbaycan diplomatiyasının növbəti uğuru ilə yadda qaldı



*Prezident İlham Əliyevin yüksək məharətlə və müdrikliklə həyata keçirdiyi xarici siyasət kursu milli maraqlarımızın qorunmasına, ölkəmizin beynəlxalq münasibətlərdə mövqeyinin və rolunun gücləndirilməsinə xidmət edir*

## Milli valyutamızın dəyər itirəcəyi ilə bağlı şayiələrin heç bir iqtisadi əsası yoxdur

Respublikamızda milli iqtisadiyyatımızın xarici mənfi şokların təsirindən qorunmasına, rəqabət qabiliyyətliliyinin yüksəlməsinə, qeyri-neft sektoru üzrə istehsal və ixrac imkanlarının genişləndirilməsinə və paralel şəkildə əhalinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsinə hədəflənən çevik monetar siyasət həyata keçirilir. Ölkədə aparılan monetar siyasətdə, o cümlədən də məzənnə çərçivələrinin və hədəflərinin müəyyənləşdirilməsində daxili amillərlə yanaşı, qlobal məkanda...

Bax səh. 6

## "Kardeş kalemler" jurnalı noyabr nömrəsini görkəmli yazıçı Mir Cəlal Paşayevin 110 illiyinə həsr edib




Türkiyədə nəşr olunan "Kardeş kalemler" aylıq Avrasiya ədəbiyyat jurnalı noyabr buraxılışını görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr edib...

Bax səh. 2

## Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilib

Dekabrın 7-də Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, konfrans iştirakçıları Ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub, Ulu öndərin xatirəsinə ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik...

Bax səh. 6

## Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir



Məlum olduğu kimi, ölkəmizdə hərbi qulluqçuların, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. Bu kateqoriyadan...

Bax səh. 7



## MİLLİ MƏCLİSİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Dekabrın 7-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəlik barədə məlumat verib. O bildirib ki, iclasın gündəliyinə 21 məsələ daxildir. Dekabrın 7-də Azərbaycanın ilk parlamentinin ilk iclasının keçirilməsindən 100 il ötdüyünü deyən Milli Məclisin sədri bu münasibətlə deputatları təbrik edib. Onun sözlərinə görə...

Bax səh. 3

## BÖLGƏLƏRDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI İLƏ BAĞLI İNTENSİV TƏDBİRLƏR HƏYATA KEÇİRİLİR

Son illərdə ölkəmizdə aqrar sektorun inkişafına xüsusi diqqət göstərilir. Azərbaycan kənd təsərrüfatının potensialından səmərəli istifadə etməklə bir tərəfdən ərzaq məhsullarına olan daxili tələbatı sırf yerli istehsal hesabına ödəməyi, digər tərəfdən isə aqrar sektordan ixrac həcmlərini artırmaqla respublikaya əlavə valyuta axınını təmin etməyi hədəfləyib. Aqrar sektorun inkişafı, eyni zamanda, bölgələrdə iqtisadi aktivliyin artmasına və fəal məşğul əhalinin əmək bazarına çıxış imkanlarının genişlənməsinə müsbət təsir göstərir ki, bu da dərin sosial əhəmiyyətə malikdir. Regionlarda aqrar sektorun inkişafı, bu sahədə istehsal və ixrac imkanlarının genişləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir. Cari ilin 9 ayında respublikamızda kənd təsərrüfatı 4,3 faiz artıb ki, bu da kifayət qədər yaxşı göstəricidir. Perspektiv inkişafla bağlı proqnozlar isə daha nikbindir. Prezident İlham Əliyev Nazirlər...

Bax səh. 8



## MOSKVADA MDB İQTİSADİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 80-ci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib. İclas iştirakçıları əmtəə və xidmətlərin azad mübadiləsi haqqında Saziş layihəsi üzərində işi fəallaşdırmaq...

Bax səh. 5

## Azərbaycanda mötəbər tədbirlərin yüksək səviyyədə təşkil olunmasında könüllülərin rolu böyükdür

Dekabrın 7-də Bakı Konqres Mərkəzində Azərbaycan Respublikası Gənclər Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Gənclər və İdman nazirliklərinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə yüzlərlə gəncin və bütün könüllü təşkilatlarının təmsil olunduğu...

Bax səh. 8

## Bakıda "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfrans keçirilib



Dekabrın 7-də Bakıda Azərbaycan Respublikası ombudsmanının təşkilatçılığı ilə "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir"...

Bax səh. 4

## *Hikmət Hacıyev*: MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev...

Bax səh. 5

## Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib



Dekabrın 2-7-də Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının...

Bax səh. 5

## Ölkə iqtisadiyyatı bu il üçün qarşıya qoyulmuş məqsədlərə nail olmaq əzmindədir



...Başa çatmaqda olan 2018-ci ilin sosial-iqtisadi nəticələri onu deməyə əsas verir ki, ölkə iqtisadiyyatı bu il üçün qarşıya...

Bax səh. 7

## Ölkəmizdə insan hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub



Dekabrın 10-da BMT Baş Məclisinin İnsan hüquqları haqqında Ümumi Bəyannaməni qəbul etməsindən 70 il ötür. İrqindən, cinsindən, dilindən, dinindən, mənşəyindən...

Bax səh. 5

# MDB dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı Azərbaycan diplomatiyasının növbəti uğuru ilə yadda qaldı

*Prezident İlham Əliyevin yüksək məharətlə və müdrikliklə həyata keçirdiyi xarici siyasət kursu milli maraqlarımızın qorunmasına, ölkəmizin beynəlxalq münasibətlərdə mövqeyinin və rolunun gücləndirilməsinə xidmət edir*





Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti əsasında 6 dekabr tarixində Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısında iştirak edib. Əvvəla qeyd edək ki, MDB çərçivəsində il ərzində görülən işlər barəsində geniş fikir mübadiləsinin aparıldığı belə zirvə toplantılarında həm də gələcək fəaliyyət istiqamətləri ətraflı müzakirə olunur. Vurğulamaq lazımdır ki, MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçirilib. Eyni zamanda, dövlət başçıları birlikdə nahar ediblər və sonra Mariinskiy Teatrda "Şelkunçik" balet tamaşasına baxıblar. Tamaşa zamanı Prezident İlham Əliyevin tədbirə ev sahibliyi edən Rusiya Prezidenti Vladimir Putinin yanında sağda əyləşməsi isə dövlətimizin başçısına, Onun şəxsiyyətinə xüsusi hörmət və ehtiramın göstəricisidir.

Tədbir çərçivəsində Prezident İlham Əliyevin Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də söhbəti olub və söhbət zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə əlaqədar fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparılıb. Azərbaycanın qəti mövqeyi ondan ibarətdir ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir. Qeyd edək ki, söhbət çərçivəsində Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə predmetinə çevrilib. Prezident İlham Əliyev Azərbaycanın bu məsələdə mövqeyini vurğulayaraq bildirib ki, "hamının hamıya" prinsipi əsasında dəyişdirmə tam olmalı, o cümlədən Dilqəm Əsgərov və Şahbaz Quliyev onların arasında yer almalıdır. Əlbəttə ki, humanist xarakter daşıyan bu kimi addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyirlər. Ermənistan tərəfi də bunu nəzərə almalıdır. Ümumiyyətlə, Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsini dövlətimizin başçısı daim diqqətdə saxlayır, bu istiqamətdə böyük səylər göstərir.

Bir məqamı da xüsusi olaraq vurğulamaq lazımdır. İşğalçı siyasətini davam etdirən Ermənistanın regionda təcrid vəziyyəti dərinləşir, təcavüzkar ölkə bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. MDB ölkələrinin qeyri-rəsmi zirvə görüşündən əvvəl keçirilmiş Avrasiya İqtisadi Birliyinin iclasında da Ermənistan təcrid durumuna düşüb. Belə ki, Ermənistanın baş naziri vəzifəsini icra edən N.Paşinyanın rəyi nəzərə alınmadan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) növbəti Baş katibinin Belarusdan olması barədə üzv dövlətlər tərəfindən qərar qəbul olunacaq. Beləliklə, Ermənistan növbəti dəfə siyasi və diplomatik məğlubiyyətlə üzləşib, yəni bu ölkənin təşkilatda baş katib vəzifəsini özündə saxlamaqla bağlı bütün səyləri fiasko ilə nəticələnib.

Bəllidir ki, yeni Baş katibin təyinatı məsələsini Prezident İlham Əliyev Ermənistan istisna olmaqla, KTMT-yə üzv olan bütün ölkələrin dövlət başçıları ilə bu və ya digər formada müzakirə edib. Ümumilikdə isə, işğalçı Ermənistanın siyasi, iqtisadi, diplomatik müstəvidə və digər platformalarda çoxsaylı məğlubiyyətləri Azərbaycanın qələbəsi kimi xarakterizə edilə bilər. Çünki Azərbaycanın səmərəli və qətiyyətli xarici siyasət kursu, eləcə də aktiv hücum diplomatiyası Ermənistanın təcrid vəziyyətinə düşərək dalana dirənməsini və nəticə etibarilə iflas və məğlubiyyətlərlə üzləşməsini şərtləndirib. Məhz Ermənistanın tamhüquqlu üzv olduğu KTMT-də növbəti dəfə acı məğlubiyyəti belə nümunələr sırasında yer alır.

Ümumiyyətlə, Azərbaycanın beynəlxalq müstəvidə mövqeyinin möhkəmlənməsini və rolunun artmasını təmin edən faktor Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu "strateji diplomatiya"dır. Təsadüfi deyil ki, bu gün Azərbaycan prinsipial xarici siyasət həyata keçirir, milli maraqlarla bağlı bütün məsələlərdə qətiyyətli mövqe nümayiş etdirir. Başqa sözlə, Azərbaycanın xarici siyasəti sırf ölkənin milli maraqlarına əsaslanır və əsas strateji hədəf ölkəmizin beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsidir. Bu kontekstdə həyata keçirilən çoxşaxəli, tarazlaşdırılmış və praqmatik xarici siyasətin qanunauyğun nəticəsi kimi, ölkəmiz, eyni zamanda, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Milli maraqlara müvafiq surətdə reallaşdırılan xarici siyasət sayəsində Azərbaycan həm ikitərəfli, həm çoxtərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Reallıq budur ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Nəticə etibarilə, dövlətimizin başçısının həyata keçirdiyi "strateji diplomatiya" siyasəti Azərbaycanın milli maraqlarının qorunmasını və qələbəsini təmin edir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Leonid Yakuboviç: Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi




**"Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda yalnız iki və ya üç bu cür adamla rastlaşmışam".** Rusiyalı məşhur teleaparıcı Leonid Yakuboviç "Moskva-Baku" portalına müsahibəsində söyləyib.

AZƏRTAC xəbər verir ki, L.Yakuboviç Azərbaycanın Ümummilli lideri Heydər Əliyevlə görüşünü xatırlayaraq deyib:

- Bu hadisə çoxdan, lap çoxdan olub. Hətta hansı ildə görüşdüyümüzü unutmuşam. Bizim "Pole çudes" komandası Bakıya gəlmişdi, idman zalında oyun keçirdik, ertəsi gün Heydər Əliyevlə görüşdük.

Əvvəlcə bu görüş 20 dəqiqəlik protokol tədbiri kimi nəzərdə tutulmuşdu. Heydər Əliyev stolun yuxarı başında əyləşmişdi. O, Azərbaycanın siyasi və iqtisadi vəziyyətini qısaca izah etdi, amma əslində mən heç nə başa düşmədim. İyirmi dəqiqəlik söhbətdən sonra O dedi: **"Hamınız azadsınız, siz isə, Leonid, əyləşin".**

Beləcə, 20 dəqiqəlik görüş 2 saat yarımlıq söhbətə çevrildi. Daha doğrusu, bu, mənim monoloqum idi, Heydər Əliyev susur, mən isə bütün həyatımı, lap doğulduğum vaxtdan Ona söyləyirdim. O, heç nə soruşmur, amma məni diqqətlə dinləyirdi. Hərdən başını tərpədir, mən yorulanda söhbəti istiqamətləndirirdi. O, özünü əsla məndən yuxarı tutmur, öz mövqeyini qabartmırdı. Hərdən sakit səslə nə isə soruşurdu. Mən Ona hər şeyi danışdım: atam və anam haqqında, atamın harada vuruşması barədə, necə dolanmağımız haqda - hər şeyi! O vaxt mən hiss etmirdim ki, danışan təkcə mənəm. Onun yanında özümü çox rahat hiss edirdim.

Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda iki və ya üç bu cür adamla rastlaşmışam. Onun gözləri çox şeydən xəbər verirdi.

Heydər Əliyev təpədən-dırnağa qədər bilik, intellekt sahibi idi. Bizim yeganə görüşümüzün təsirindən hələ də özümə gələ bilmirəm. Mən bütün söhbətimizi kağıza köçürmək istədim, amma nədənsə alınmadı. Məndə belə hiss yaranmışdı ki, Onunla min ildir tanışıq və O, sanki mənim gəlməyimi, hər şeyi Ona danışmağımı gözləyirdi.

Sonradan Onunla söhbətimizi təhlil edərək xalqın nə üçün onun ardınca getdiyini başa düşdüm. Onu dinləyir və eşidirdilər. O, nəhəngdir. Mən güman etmirəm ki, Ondan qorxurdular. Xalq Ona hədsiz hörmət bəsləyir və ümid edirdi ki, respublikanı yalnız O, xilas edə bilər.

Heydər Əliyevin oğlu İlham Ona çox oxşayır. Bu, Əliyev geninin gücünə dəlalət edir. Təbiət bu genin qüdrətini İlham Heydər oğluna ötürüb. O, atasına xas olan daxili qüvvəni, güclü xarakteri əxz edib.

# "Kardeş kalemler" jurnalı noyabr nömrəsini görkəmli yazıçı Mir Cəlal Paşayevin 110 illiyinə həsr edib




Türkiyədə nəşr olunan "Kardeş kalemler" aylıq Avrasiya ədəbiyyat jurnalı noyabr buraxılışını görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr edib.

AZƏRTAC xəbər verir ki, jurnalın bu nömrəsi Avrasiya Yazarlar Birliyi və "Buta" Azərbaycan mədəniyyətini yayma və yaşatma dərnəyinin ortaq layihəsi olaraq hazırlanıb. Jurnalda akademik Nizami Cəfərovun "Mir Cəlal və dünya xalqları", professor Təyyar Salamoğlunun "Bir gəncin manifesti" esse romanı", yazıçı-şair İftixar Piriyevin "Mir Cəlalın manifesti", filologiya elmləri doktorları Almaz Ülvinin "Mir Cəlal: bir yarpaq söz", Vaqif Yusiflinin "Mir Cəlal həqiqətləri", Dünya Gənc Türk Yazıçılar Birliyi məsləhət Şurasının rəhbəri Əkbər Qoşalının "Mir Cəlal Paşayev", gənc tədqiqatçı Şahanə Muşfiqin "Həcv və satira janrında iki usta isim: Mir Cəlal və Əziz Nesin" məqalələri yer alıb. Bundan başqa, yazıçının "Dostumun qonaqpərvərliyi" və "Nazik mətləb" hekayələri Oktay Hacımusanın tərcüməsində türkdilli oxuculara təqdim olunub.

Məqalələrdə Mir Cəlal Paşayevin zəngin yaradıcılıq yolu ətraflı təhlil olunur, ədibin böyük ədəbi ustalıqla qələmə aldığı əsərlərin mahiyyətindən bəhs edilir. Tədqiqatçılar əsaslandırırlar ki, Mir Cəlal Paşayev əsərləri bütün dövrlərdə cəlbedici olmuş, geniş oxucu auditoriyasına sahib çıxa bilmişdir.

Nəfis tərtibatda oxucuların görüşünə gələn jurnalda görkəmli ədibin həyatını əks etdirən maraqlı fotolar da yer alıb.

# Serbiya Prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib



Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Serbiya Prezidenti Aleksandr Vuçiç 2018-ci ilin mayında Azərbaycana səfərini məmnunluqla xatırlayıb və salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib. Serbiya Prezidenti ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini, Serbiyanın Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayıb.

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkür edib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Serbiya Respublikasının Prezidentinə çatdırıb, Azərbaycan-Serbiya əlaqələrinin strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını, ölkəmizin əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini bildirib.

Görüşdə Azərbaycan-Serbiya əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə inkişaf etdiyi qeyd olunub, iqtisadi-ticarət, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, tranzit, infrastruktur, turizm, İKT, səhiyyə və digər sahələrdə Azərbaycan-Serbiya əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Milli Məclisin növbəti iclası keçirilib

## *Millət vəkilləri iclasda "Lazarev klubu"nda Azərbaycana qarşı səsləndirilən fikirlərə kəskin etirazlarını bildiriblər*





Dekabrın 7-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəlik barədə məlumat verib. O bildirib ki, iclasın gündəliyinə 21 məsələ daxildir. Dekabrın 7-də Azərbaycanın ilk parlamentinin ilk iclasının keçirilməsindən 100 il ötdüyünü deyən Milli Məclisin sədri bu münasibətlə deputatları təbrik edib. Onun sözlərinə görə, Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı yubiley medalı hazırdır. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində həmin medallar millət vəkillərinə təqdim ediləcək.



***Oqtay Əsədov:***
*Rusiya-Azərbaycan əlaqələrini pozmaq mümkün deyil*

Sonra millət vəkilləri cari məsələləri müzakirə ediblər. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Azərbaycan-Rusiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Əli Hüseynli deyib ki, Azərbaycanla Rusiya arasında münasibətlər bütün sahələr üzrə inkişaf etməkdədir: **"Son zamanlar Rusiya elitasının üzvləri, siyasətçilər, diplomatlar, hərbi ekspertlər Azərbaycanda olub və Dağlıq Qarabağın Azərbaycanın tarixi torpaqları olduğu haqqında fikirlər söyləyiblər. Konstantin Zatulinin "Lazarev klubu"nda çıxışı isə Rusiyanın rəsmi dairələrinə uğursuz cavab cəhdidir".**

Ə.Hüseynli bildirib ki, Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək mümkün deyil. Onun sözlərinə görə, Zatulinin bu addımı Ermənistanla Rusiya arasında soyuq münasibətlərə neqativ ruh verməkdən başqa bir şey deyil. "Lazarev klubu"nda siyasi korrupsiyaya qoşulmuş ekspertlərin təmsil olunduğunu deyən komitə sədri söyləyib ki, İrəvanda keçirilən iclas Rusiyanın rəsmi mövqeyi deyil: **"Amma rəsmi Bakı bununla bağlı fikirlərini bildirib və bu addıma qarşı öz narazılığını ifadə edib. Uzun illərdir ki, Zatulin erməni lobbiçiliyi ilə məşğul olur. O, sıravi deputat olsaydı, bizi narahat etməzdi. Lakin Dumada təmsilçiliyini nəzərə alsaq, belə halların baş verməsi qəbuledilməzdir. Hazırda hər iki ölkənin siyasətlərinə uyğun olaraq parlamentlərarası münasibətlər yüksələn xətlə inkişaf edir. Bu baxımdan Rusiya Dövlət Dumasına müraciət göndərilməlidir. Bu, belə davam edə bilməz".**

**"Bu gün Rusiya-Azərbaycan münasibətləri yüksələn istiqamətdə, strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir, ölkə prezidentlərinin mütəmadi qarşılıqlı səfərləri, görüşləri bunu bir daha göstərir. Lakin təəssüflər olsun ki, bəzi qüvvələr Rusiya-Azərbaycan münasibətlərinə xələl gətirməyə, təsir göstərməyə çalışırlar".** Bu fikirləri isə Milli Məclisin deputatı Bəxtiyar Əliyev deyib. B.Əliyev bildirib ki, K.Zatulin bu ilin yazında İrəvanda Paşinyana qarşı şüarlarla çıxış edib, indi isə guya Rusiya-Ermənistan münasibətlərini düzəltməyə çalışır: **"Bu gün Ermənistanda 3-4 min rus millətindən olan insan qalıb, halbuki vaxtilə Ermənistanda 100 mindən artıq rus yaşayıb. Onlar hamısı çıxıb gedib, qalanlar isə iş adamlarıdır. Reallıq bundan ibarətdir ki, bu gün Ermənistanda siyasi rejim dəyişir və bu fürsətdən istifadə edərək Zatulin və onun kimi bulanıq sudan nəsə əldə etmək istəyənlər hər zamankı kimi yenə də öz məqsədlərini güdürlər".**



***Siyavuş Novruzov:***
*Rusiyada yaşayan milyonçu azərbaycanlılar öz vətəni, xalqı qarşısında məsuliyyətlərini dərk etməlidirlər*

Deputat vurğulayıb ki, bu cür hərəkətlərə Rusiya tərəfindən də münasibət bildirilməlidir: **"Biz tələb etməliyik ki, Zatulinin hərəkətlərinə lazımi siyasi qiymət verilsin".**

**"Ermənistanda hər zaman iqtisadi, siyasi vəziyyət ağırlaşan kimi dərhal Naxçıvan məsələsi ortaya atılır. Vaxtilə Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ermənilərin Naxçıvana qarşı iddialarına birdəfəlik son qoyuldu və Qars müqaviləsinin uzadılması ilə bağlı razılığa gəlindi".** Bu fikirləri isə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. S.Novruzov bildirib ki, bu gün Azərbaycanla Rusiya arasında çox gözəl münasibətlər var: **"Lakin bundan ən çox bəhrələnən kimlərdir? Əlbəttə, Rusiyada yaşayan və biznes fəaliyyəti göstərən azərbaycanlılar. O zaman sual olunur, niyə onlar belə məsələlərdə öz mövqelərini bildirmirlər?".**

Onun sözlərinə görə, İrəvanda keçirilən məlum tədbir erməni diasporunun fəaliyyətidir: **"Rusiyada dərc olunan jurnallarda Azərbaycan milyonçularının siyahısı çıxır. Amma bu gün Rusiyada səfirliyimiz, Heydər Əliyev Fondunun nümayəndəliyi və Rusiya Azərbaycanlı Gənclər Təşkilatından (AMOR) başqa, digərləri orada tədbirlər təşkil etmirlər. Axı siz Rusiya ilə Azərbaycan arasında yaxşı münasibətlər əsasında qazanc əldə edirsiniz".**

S.Novruzov söyləyib ki, ölkəmizdə bəzi anti-Azərbaycan qüvvələr Rusiyada yaşayan milyonçu azərbaycanlılar tərəfindən maliyyələşdirilir: **"Rusiya parlamentində bir Zatulin var, amma yüzlərlə başqa deputatlar var. Onlar müxtəlif tədbirlərə cəlb edilməli, Azərbaycanı dəstəkləyən mövqe ortaya qoymalarına nail olunmalıdır. Rusiyada yaşayan milyonçu azərbaycanlılar öz vətəni, xalqı qarşısında məsuliyyətlərini dərk etməlidirlər".**

Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli bildirib ki, "Lazarev klubu" radikal erməni klubudur. Onun sözlərinə görə, klub millətçilik və düşmənçilik ideyaları yaymaqla məşğuldur: **"Zatulin, Kazimirov kimi adamların fikirləri isə regionda, ölkələr arasında gərginlik yaratmağa xidmət edir. Bu, Rusiya dövlətinin də maraqlarına uyğun deyil. Azərbaycanla Rusiya münasibətləri möhkəm təməllər üzərində inkişaf edir. Biz də bu əlaqələrin inkişafında maraqlıyıq".**

Naxçıvana qarşı iddialara gəlincə, millət vəkili bildirib ki, 13 oktyabr 1921-ci ildə imzalanmış Qars müqaviləsi beynəlxalq müqavilədir və bu müqavilədə beş dövlətin imzası var: **"Beynəlxalq müqavilənin şərtlərindən biri də budur ki, tərəflərdən yalnız birinin narazılığı olarsa, bu müqavilə ləğv oluna bilməz. Ona görə də "Lazarev klubu"nda səslənən iddiaların heç bir əsası yoxdur. Qars müqaviləsi bu gün də regionda sülhün, sabitliyin təmin olunmasına öz töhfəsini verir. Naxçıvan ərazi etibarilə qədim türk-Azərbaycan torpağıdır, qədim oğuz yurdudur. Burada ermənilərin heç bir izi yoxdur. Ermənilərin bəyanatları əsassızdır, təcavüzkar xarakter daşıyır və nə elmə, nə də siyasətə söykənir".**

Millət vəkili Cavid Qurbanov isə bildirib ki, belə tədbirlərin məqsədi iki dövlət arasında münasibətləri korlamaqdır: **"İkitərəfli münasibətlər son dövrlər daha da yüksəlib. Təkcə dəmir yolunda yükdaşımalar 9 faiz artıb. Yəni söhbət ondan gedir ki, ölkəmiz gücləndikcə belə məsələlər olacaq. Amma ermənilər bilməlidirlər ki, biz öz torpaqlarımıza sahib çıxacağıq".**



***İsa Həbibbəyli:***
*Qars müqaviləsi bu gün də regionda sülhün, sabitliyin təmin olunmasına öz töhfəsini verir*

Məsələyə münasibət bildirən Milli Məclisin sədri Oqtay Əsədov deyib ki, Konstantin Zatulin Rusiya Dövlət Dumasının üzvü olmadığı zamanda da Azərbaycana düşmən mövqe tutan şəxs idi. O, erməni diasporunun dəstəyi ilə Rusiya Dövlət Dumasına üzv seçilib. O.Əsədov bildirib ki, Zatulin MDB-yə dəxli olmayan, amma bu təşkilatın adına uyğun institut yaratmışdı ki, həmin institut erməni diasporu tərəfindən maliyyələşir: **"Mən həmin siyahıya baxanda burada ruslardan başqa, Rusiyada olan erməni mənşəli vəzifəli adamların adını gördüm. Lazarevin kökü də ermənidir. Vaxtilə Azərbaycanda qırğın törədən də Lazarev idi. Məsələ bizə aydındır".**

Spiker qeyd edib ki, belə cılız münasibətlərlə Rusiya-Azərbaycan əlaqələrini pozmaq mümkün deyil: **"Mən Rusiya Dövlət Dumasının sədri Volodinə məktub yazmışam. Yəqin ki, bir ölçü götürüləcək".**

Çıxışı zamanı spiker Ermənistan tərəfinin Naxçıvanla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirən deputatlara xitabən: **"Naxçıvanla bağlı məsələyə fikir verməyin. Naxçıvandan İrəvana 60 kilometr məsafə olduğu üçün Ermənistan hər zaman bundan narahatdır"**, - deyib.

Daha sonra gündəlikdəki məsələlərə baxılıb. İlk olaraq Milli Məclis sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə sənədi ikinci səsverməyə təqdim edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə parlamentdə üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Aviasiya haqqında", "Dövlət borcu haqqında", "İnzibati icraat haqqında" qanunlara, eləcə də Cinayət Prosessual və İnzibati Xətalar məcəllələrinin müvafiq maddələrinə təklif olunan dəyişikliklərə dair məsələləri şərh edib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Psixoloji yardım haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, layihə Milli Məclis rəhbərliyinin tapşırığı və Səhiyyə komitəsinin təşəbbüsü ilə yaradılan işçi qrupu tərəfindən hazırlanıb. Ölkədə psixologiya sahəsinin tanınmış mütəxəssisləri iş prosesində yaxından iştirak ediblər. Dünya ölkələrinin bu sahədə təcrübəsi öyrənilib. Sənədə parlamentin plenar iclasında birinci və ikinci oxunuşda baxılıb və təqdim olunan bir sıra təkliflər nəzərə alınıb.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Sənəd səsvermə yolu ilə təsdiq olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, qanunda edilməsi nəzərdə tutulan dəyişikliklər "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli Qanununa uyğunlaşdırma məqsədi daşıyır.

Sonra Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı məlumat verdikdən sonra sənədlər qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Avtomobil yolları haqqında" qanunda dəyişiklik edilməsi barədə məlumatında vurğulayıb ki, sənədin 6, 21, 27 və 59-cu maddələrində dəyişiklik edilməsi zərurəti Azərbaycan Prezidentinin "Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 2 aprel tarixli Fərmanının icrası məqsədilə hazırlanıb. Milli Məclisin deputatları həmin dəyişiklikləri müsbət qarşılayıblar.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədi ikinci oxunuşda təqdim edərkən bildirib ki, təklif edilən dəyişikliyin məqsədi məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyin elektron qaydada qeydiyyata alınmasının hüquqi mexanizminin müəyyən edilməsindən ibarətdir. Sənəd səsə qoyularaq təsdiq olunub.



***Əli Hüseynli:***
*Zatulinin "Lazarev klubu"nda çıxışı Rusiyanın rəsmi dairələrinə uğursuz cavab cəhdidir*

Komitə sədri Əli Hüseynli, həmçinin Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında sənədlə bağlı məlumatında deyib ki, 2016-cı ilin sentyabrında ölkəmizdə keçirilmiş referenduma əsasən Konstitusiyada bir sıra dəyişikliklər edilməsi nəticəsində Seçki Məcəlləsində mövcud olan 178.1-ci maddə ilə ziddiyyət meydana gəlib. Belə ki, növbədənkənar prezident seçkilərində seçilmiş Prezidentin səlahiyyət müddəti oktyabr ayında yox, 7 il əvvəl Prezident seçildiyi tarixdə bitir. Həmin ziddiyyətin aradan qaldırılması üçün məcəllədə dəyişiklik edilməsi zərurəti yaranıb. Milli Məclisin deputatları Seçki Məcəlləsində dəyişikliyə dair qanun layihəsini ikinci oxunuşda məqbul sayıblar.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, məcəllənin dərman vasitələri haqqında qanunvericiliyin pozulması ilə bağlı 221-ci maddəsinə bir sıra əlavələr nəzərdə tutulub. Əlavələrə əsasən, dərman vasitələrinin istehsalına, daşınmasına və saxlanmasına, eləcə də topdan satışına dair tələblərin pozulmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilirlər. Sənəd ikinci oxunuşda səsə qoyularaq təsdiq olunub.

Qeyd edək ki, iclasda bir sıra digər qanunlara da dəyişikliklər edilib.

**Nardar BAYRAMLI**

# Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib

Dekabrın 7-də Milli Məclisdə Aqrar siyasət komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Eldar İbrahimov gündəlik barədə məlumat verib. Bildirib ki, ölkəmizdə Ələt azad iqtisadi zonasının yaranması ilə əlaqədar gündəlikdəki dörd qanuna dəyişiklik edilməsi zərurəti meydana gəlib.

İclasda həmin layihələri təqdim edən Milli Məclis Aparatının iqtisadi qanunvericilik şöbəsinin müdir müavini, aqrar qanunvericilik sektorunun müdiri Vilayət Əlizadə deyib ki, qanunvericiliyin uyğunlaşdırılması baxımından Torpaq Məcəlləsində və "Torpaq icarəsi haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsində məqsəd bu ilin 18 may tarixində qəbul olunmuş "Ələt azad iqtisadi zonası haqqında" Qanunun tətbiqi üçün hüquqi zəmini təkmilləşdirməkdir.

Qeyd olunub ki, Ələt azad iqtisadi zonası xüsusi qaydada fəaliyyət göstərəcək və bir sıra fərqli cəhətlərə malik olacaq ərazi olduğundan orada tətbiq ediləcək qaydalar da ölkənin digər yerlərindəki qaydalardan fərqlənəcək. Bu ərazidə qabaqcıl beynəlxalq təcrübəyə və standartlara uyğun gələn qaydalara üstünlük veriləcək. Azad Zonada maliyyə, gömrük işi, əmək münasibətləri, miqrasiya, vergi tənzimlənməsi, valyuta əməliyyatları aparmaq azadlığı, müflisləşmə və iflas, notariat fəaliyyəti, əqli mülkiyyət kimi bir sıra sahələrə, o cümlədən torpağa və sığortanın stimullaşdırılmasına dair münasibətləri tənzimləyən məcburi xarakterli daxili qaydalar qəbul ediləcək.



Vilayət Əlizadə diqqətə çatdırıb ki, torpaq münasibətlərinin tənzimlənməsi məqsədilə qəbul olunacaq qaydalarda Azad Zonanın torpağı ilə bağlı prosedurlar, bu torpağa dair sərəncam, o cümlədən istifadə, icarə, təminat və digər hüquqların yaradılması və onlara xitam verilməsi qaydaları və tələbləri, Azad Zona torpağına dair hüquqların yaradılmasını və onlara xitam verilməsini təsdiq edən özünün reyestrinin aparılması və digər məsələlər göstəriləcək. Azad Zona torpağına dair bütün hüquqlar bu reyestrdə qeydiyyata alınacaq. Bütün bunların hüquqi tənzimlənməsi üçün torpaq icarəsi, torpaqların dövlət ehtiyacları üçün alınması və kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında qanunlara, həmçinin Torpaq Məcəlləsinə müvafiq əlavələr təklif olunur.

Deputatlar qanun layihəsi barədə fikir və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir. Ulu öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Başqa sözlə, Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir.*



Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Arif Rəhimzadə qeyd edib ki, 15 ildir ki, Ulu öndər Heydər Əliyev cismən bizimlə olmasa da, Onun ideyaları yaşayır və hər zaman yaşayacaq: **"Çünki bugünkü və gələcək inkişafımız Heydər Əliyevin qurduğu bünövrə üzərində ucalıb. Azərbaycanın böyük oğlu Heydər Əliyevin parlaq şəxsiyyəti və misilsiz xidmətləri qədirbilən xalqımızın xatirəsində əbədi yaşayacaq".**

YAP İdarə Heyətinin üzvü əlavə edib ki, Ulu öndər Heydər Əliyevin iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq bir dövr Azərbaycanın çoxəsrlik tarixində, dövlətçiliyimizin və xalqımızın mənlik şüurunun formalaşmasında tarixi bir mərhələ təşkil edib: **"Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünyabaxışının formalaşması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilib. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı ilə, ilk növbədə, Azərbaycan məhv olmaqdan, parçalanmaqdan xilas oldu. Heydər Əliyevin dühası, çox böyük nüfuzu və insanları Öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başının üstünü almış təhlükələr aradan qaldırıldı, Azərbaycan inkişaf yoluna çıxdı".**

**"Bu gün Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. 2003-cü ildə cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin inkişafında yeni mərhələ başlandı. Bu gün ölkəmiz dünyada böyük nüfuz sahibidir, Azərbaycan heç kimdən asılı olmadan müstəqil siyasət həyata keçirir. Bu gün dövlətimizin təhlükəsizliyi tam təmin olunub, müstəqilliyimiz qorunur, Azərbaycan bütün sahələrdə, o cümlədən dünya birliyinin layiqli üzvü kimi beynəlxalq müstəvidə möhtəşəm uğurlar qazanır"**, - deyə A.Rəhimzadə vurğulayıb.

Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov deyib ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri misilsizdir. Onun sözlərinə görə, müasir müstəqil Azərbaycan Ümummilli lider Heydər Əliyevin şah əsəridir: **"Ulu öndər Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət edib, Azərbaycan dövlətinin və xalqının xoşbəxt gələcəyi uğrunda fədakarlıqla çalışıb. Başqa sözlə, Ulu öndərimiz müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün tarixi işlər görüb".**

**"14 iyul 1969-cu il tarixində Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması respublikamızın tarixində dönüş nöqtəsi idi. Yəni həmin tarixdən başlayan böyük inkişaf yolu Azərbaycanın gələcək tərəqqisinin əsası oldu. 1993-cü ildə isə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizdə sabitlik təmin edildi, inkişaf və yüksəlişin əsası qoyuldu. Respublikamızın beynəlxalq mövqeyi möhkəmləndi"**, - deyə E.İbrahimov əlavə edib.

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan siyasətin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq respublikamızın hərtərəfli inkişafı təmin edilib: **"Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycan dövlətinin qüdrətinin daha da artmasını təmin edib, ölkəmiz bütün sahələrdə möhtəşəm uğurlar əldə edib".**

AMEA-nın vitse-prezidenti, Milli Məclisin komitə sədri, akademik İsa Həbibbəyli deyib ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin, bütövlükdə yeni Azərbaycanın qüdrətli yaradıcısı və böyük qurucusudur: **"Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri hələ Sovet dövründə hakimiyyətdə olduğu zaman milli dövlətçilik təfəkkürünü yaratmasından və milli ideologiyanın əsaslarını formalaşdırmasından ibarətdir. Ulu öndərin digər bir misilsiz xidməti isə müstəqil Azərbaycanın təməlini qoymasıdır. Dahi şəxsiyyət Azərbaycanı təhlükələrdən xilas etməklə yanaşı, müstəqilliyimizin əbədiliyini təmin etdi".**

**"Ümummilli lider Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycançılıq ideyasını dövlətin siyasi ideologiyası səviyyəsinə yüksəldib. Azərbaycan və Azərbaycançılıq anlayışları qədim tarixə malik olsalar da, uzun əsrlər boyu yalnız coğrafi yer adı kimi işlədilib, son yüzillikdə həm də milli ideya olaraq formalaşıb. Azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsi Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük tarixi xidmətlərindən biridir"**, - deyə İ.Həbibbəyli əlavə edib.

İ.Həbibbəyli bildirib ki, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir: **"Ulu öndərin böyük ideyaları ardıcıllıqla və uğurla həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil Azərbaycanı böyük sürətlə inkişaf etdirərək yeni sabahlara doğru aparır. Azərbaycan beynəlxalq aləmdə də yüksək nüfuza malik olan qüdrətli dövlət kimi tanınır".**

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov isə bildirib ki, Azərbaycan xalqı üçün misilsiz xidmətlər göstərən Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur: **"Zaman keçdikcə biz Ümummilli liderimizin fəaliyyətinin məntiqini, mahiyyətini daha yaxşı dərk etməyə başlayırıq. Heydər Əliyev heç bir işini yarımçıq qoymurdu. O, hansı işə başlayırdısa, yüz ölçüb bir biçib, tələsmədən və gecikmədən həyata keçirirdi. Bu, ən müxtəlif sahələrə aid olan məsələlərdə - hərc-mərcliyin aradan qaldırılmasından başlanmış təsərrüfat həyatının qaydaya salınmasına qədər özünü göstərdi. Bu ancaq böyük dövlət adamlarına aid xüsusiyyətdir. Müasir müstəqil Azərbaycan dövlətinin yaranması, ölkəmizin müstəqilliyinin möhkəmlənməsi Heydər Əliyevin uzaqgörən fəaliyyətinin, mübarizəsinin, cəsarətinin və böyük siyasi iradəsinin nəticəsidir".**

**"Ümummilli liderin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin nəticəsi kimi, Azərbaycan sürətli və yüksək inkişaf yoluna qədəm qoyub, qazanılan nailiyyətlər bütün sferaları əhatə edir. Təbii ki, bütün bu nailiyyətlər və bundan sonrakı dövrlərdə qazanacağımız uğurlar Ulu öndər Heydər Əliyevin qoymuş olduğu möhkəm bünövrəyə söykənir. Müstəqil Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Heydər Əliyevin parlaq ideyaları həmişə bu inkişaf və tərəqqinin önündə gedəcək"**, - deyə N.Cəfərov əlavə edib.

N.QƏLƏNDƏRLİ

# Bakıda "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfrans keçirilib






Dekabrın 7-də Bakıda Azərbaycan Respublikası ombudsmanının təşkilatçılığı ilə "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova beynəlxalq konfransın Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr olunduğunu söyləyib.

Azərbaycanda insan hüquqlarının qorunması sahəsində görülən işlərdən danışan müvəkkil qeyd edib ki, Ombudsman Aparatı insanların hüquq və azadlıqlarının qorunması istiqamətində BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar ilə əməkdaşlıq şəraitində çalışır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 64 əfv sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib və bunlar on minlərlə insana şamil olunub. Dövlətimizin ali məqsədinin insan hüquqlarının müdafiəsi olduğunu deyən ombudsman vurğulayıb ki, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs ölkədə dayanıqlı inkişafa, insanların həyat səviyyəsinin yüksəlməsinə, hüquq bərabərliyinin təmininə imkan yaradıb. Ölkəmizdə hüquqla bağlı çoxsaylı qanunvericilik aktları qəbul olunub. Bu gün özlərini demokratiyanın beşiyi hesab edən ölkələrdə ksenofobiya, dini, irqi ayrı-seçkilik halları baş versə də, Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələri bərabər şəkildə yaşayırlar.

Milli Məclisin sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova qeyd edib ki, bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsini təmin edən çox mükəmməl qanunvericilik bazası var. Azərbaycanın qanunvericilik bazası insanların hüquqlarının bərabər şəkildə təmin edilməsini gerçəkləşdirən mühit formalaşdırır. Bugünkü nailiyyətlər bu uğurların əldə edilməsinə töhfə verən Azərbaycan vətəndaşlarının iştirakı ilə əldə olunub. Xalqın mütləq dəstəyi olmadan hər hansı ideyanı gerçəkləşdirmək qeyri-mümkündür. Bu gün insan hüquqlarının təminindən, ədalətdən danışılır. Müstəqil dövlət olmasa və insan hüquqlarının təmini üçün lazım olan şərait yaradılmasa, bütün bunları etmək olmaz. Azərbaycan ötən illərdə çox böyük uğurlara imza atıb. Bu gün bizim hər birimiz belə bir ölkənin vətəndaşı olduğumuz üçün qürur duyuruq, eyni zamanda, bunun məsuliyyətini daşımalıyıq. Azərbaycanın əsas qanunu olan Konstitusiyada hüquq bərabərliyi və onun dövlət tərəfindən təmin edilməsi öz təsbitini tapıb. Dünyada gündəlik hüquqpozmalar, məişət zorakılığı, mənsubiyyətə görə fərqqoyma kimi mənfi hallarla üzləşdiyimiz bir dövrdə beynəlxalq təşkilatlar koordinasiya olunmuş şəkildə fəaliyyət göstərməlidirlər. Bunun üçün də geniş maarifləndirmə işləri aparılmalıdır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai diqqətə çatdırıb ki, Azərbaycan insan hüquqlarının qorunması sahəsində çox fəaldır və Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən irəli gələn öhdəlikləri yerinə yetirir. Azərbaycan insan haqları ilə bağlı tövsiyələrə əməl edir, insan haqlarına hörmətini nümayiş etdirir, bir çox beynəlxalq sazişlərə qoşulub.

Qulam İshaqzai əlavə edib ki, dünyada vətəndaş cəmiyyətinin insan hüquqlarının qorunması ilə bağlı atdıqları addımlar getdikcə daralır. Hər bir şəxsin hüquqlarının qorunması hamımızdan asılıdır. Dayanıqlı inkişaf üçün yoxsulluğun aradan qaldırılması insan hüquqlarının yaxşılaşmasına yönəlmiş addımdır. İnsanlar dünyada baş verən proseslərdən, dəyişikliklərdən, qeyri-müəyyənliklərdən əziyyət çəkirlər. İnsan hüquqlarının qorunması bu mənada çox vacibdir. Azərbaycan bu sahədə də uğurlar qazanıb, çox fəal şəkildə müntəzəm olaraq aidiyyəti qurumlara hesabatlar təqdim edir. BMT Azərbaycana bu istiqamətdə dəstək verir.

UNICEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin bildirib ki, Azərbaycan 26 il bundan əvvəl BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub. Azərbaycan hökuməti konvensiyadan irəli gələrək uşaqların ibtidai təhsil almaları, ölüm hallarının azaldılması və erkən nikahların qarşısının alınması istiqamətində işlər görüb. Azərbaycan hökuməti və parlamenti birgə fəaliyyətlə həssas ailələrdəki uşaqlara xüsusi diqqət yetirir.

Bundan başqa, E.Karvardin Azərbaycanda qız uşaqlarının təhsilə cəlb edilməsi istiqamətində görülən işləri yüksək qiymətləndirib. Əlavə edib ki, qızların təhsil almaları gələcək nəslin savadlı olmasına yol açır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova deyib ki, Azərbaycan hökuməti qadınların və uşaqların müdafiəsi sahəsində gələcəkdə görüləcək işləri və hədəfləri müəyyən edib. Həmin tədbirlərin ən vacibi ailə institutunun gücləndirilməsi, reproduktiv sağlamlıq, qadınların və uşaqların zorakılığına qarşı tədbirlərin görülməsidir. O deyib ki, məişət zorakılığı bu gün aktualdır, amma məişət zorakılığı ilə bağlı vəziyyətə baxış fərqlidir. Bu gün zorakılıq qurbanlarının hüquqlarının müdafiəsi üçün tədbirlər görülür. Ölkədə hər bir işdə davamlılığın təmin edilməsi üçün tədbirlər həyata keçirilir. Ötən müddət ərzində qadınların hüquqlarının müdafiəsi sahəsində iki mühüm qanun - "Gender siyasəti haqqında" və "Məişət zorakılığı haqqında" qanunlar qəbul edilib.

Sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyev, Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni insan hüquqlarının müdafiəsi sahəsində tədrisin rolu və insan hüquqları və vətəndaş cəmiyyəti mövzularında çıxış ediblər.

Tədbirin sonunda Ombudsman Aparatının "Hüquqlar - hamı üçün" və "Mən və hüquqlarım" mövzularında təşkil olunan yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıb.

## Hesablama Palatasının növbəti kollegiya iclası keçirilib



Dekabrın 7-də Hesablama Palatasının fəaliyyətə başlamasının 17 ili tamam olur.

Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında palata sədri Vüqar Gülməmmədov dekabrın 7-də Hesablama Palatasının fəaliyyətə başlamasının 17-ci ilinin tamam olması münasibətilə palata üzvlərini və əməkdaşlarını, qurumun fəaliyyətə başladığı ilk gündən burada işləyən əməkdaşları xüsusi qeyd edərək təbrik edib, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Sentyabrın 5-dən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının yeni Qanununun qüvvəyə mindiyini qeyd edən sədr Vüqar Gülməmmədov Hesablama Palatasının Qanunda müəyyən edilmiş fəaliyyət istiqamətləri, hüquqları, vəzifələri və bunların həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsi üzrə qarşıda duran işlər barədə danışıb.

Kollegiya iclasında həyata keçirilmiş bir sıra nəzarət tədbirləri üzrə hesabatlar müzakirə olunub. Müzakirə olunan məsələlər arasında "Dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılan vəsaitlərdən istifadəyə dair; Bərdə Regional Mədəniyyət İdarəsinə ayrılan büdcə vəsaitlərinin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasına dair; "Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarəti tədbirlərinə hazırlıq, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları" yer alıb.

İclasda hər bir nəzarət tədbiri üzrə kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiqlənib. Həmin qərarların icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət qurumlarına təqdimatların göndərilməsi və audit tədbirlərinin nəticələri barədə məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunması qərara alınıb.

İclasda, həmçinin "Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarəti tədbirlərinə hazırlıq, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları" geniş müzakirə olunaraq təsdiqlənib.

# Moskvada MDB İqtisadi Şurasının növbəti iclası keçirilib



Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 80-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.

İclas iştirakçıları əmtəə və xidmətlərin azad mübadiləsi haqqında Saziş layihəsi üzərində işi fəallaşdırmaq, ona "İnvestisiyalar" fəslini əlavə etmək barədə qərar qəbul ediblər, "MDB-nin iştirakçısı olan dövlətlərdə rəqabətli siyasətin formalaşdırılması" mövzusunda məruzəni müzakirə ediblər və tövsiyə ediblər ki, MDB ölkələrinin əlaqədar nazirlik və idarələri onun müddəalarını nəzərə alsınlar.

2020-ci ilə qədər olan dövrdə Dövlətlərarası İnnovasiya Əməkdaşlığı Proqramı çərçivəsində innovativ fəaliyyətin monitorinq sistemi haqqında Əsasnamə və innovasiyaların kommersiyalaşdırılması mərkəzləri şəbəkəsinin yaradılması haqqında Əsasnamə də təsdiq edilib.

İclas iştirakçıları dəmir yolu nəqliyyatında razılaşdırılmış tarif siyasətinin müəyyən edilməsi Konsepsiyası və 2018-ci fraxt ili üçün dəmir yollarının tarif siyasəti haqqında MDB Hökumət Başçıları Şurasının qərarının yerinə yetirilməsi barədə informasiyanı müzakirə ediblər, malın mənşə ölkəsinin müəyyən edilməsi qaydaları haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol layihəsini bəyəniblər.

İclasda 2018-ci ildə Tacikistan Respublikasının MDB-yə sədrliyinin iqtisadi gündəliyinə yekun vurulub. İqtisadi Şura üzvlərinə 2019-cu ildə MDB-yə Türkmənistanın sədrliyi Konsepsiyası təqdim edilib.

Bundan əlavə, bir sıra büdcə-maliyyə və təşkilati məsələlər müzakirə olunub.

MDB İqtisadi Şurasının növbəti iclası 2019-cu il martın 15-də Moskvada keçiriləcək.

# Hikmət Hacıyev: MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi



Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı və tədbirin əhəmiyyəti barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

**- Dekabrın 6-da MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində qeyri-rəsmi Zirvə toplantısı keçirildi. Prezident İlham Əliyev Zirvə toplantısında iştirak etdi. Bu tədbirin əhəmiyyəti və müzakirə olunan məsələlər barədə nə deyərdiniz?**

- Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə dekabrın 6-da Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirak etdi. Keçən il isə MDB dövlətlərinin qeyri-rəsmi Zirvə toplantısı Moskvada keçirilib. Bu qəbildən olan zirvə toplantılarında MDB çərçivəsində il ərzində görülən işlər barədə geniş fikir mübadiləsi aparılır və gələcək fəaliyyət istiqamətləri ətraflı müzakirə olunur. Bu dəfə də keçirilən qeyri-rəsmi Zirvə toplantısı əsnasında eyni məqsədlər güdülürdü. MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü də işgüzar və səmimi şəraitdə keçdi, dövlət başçıları birlikdə nahar etdilər və sonra Mariinski Teatrında "Şelkunçik" balet tamaşasına baxdılar. Bir məqama da toxunmaq istərdim ki, tamaşa zamanı Prezident İlham Əliyev tədbirə ev sahibliyi edən Prezident Vladimir Putinin yanında sağda əyləşmişdi. Bu, dövlətimizin başçısına və Onun şəxsiyyətinə xüsusi hörmətin və ehtiramın əlamətidir.

Zirvə görüşündə Prezident İlham Əliyevin tədbirdə iştirak edən bütün dövlət başçıları ilə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında məzmunlu söhbəti və müzakirələri oldu.

**- Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də müzakirələr aparıldımı?**

- Bəli. Tədbir əsnasında Prezident İlham Əliyevin Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də söhbəti oldu. Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və ateşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparıldı. Nəzərə almaq lazımdır ki, bu iki amil bir-biri ilə sıx şəkildə bağlıdır və biri digərini tamamlayacaq şəkildə davam etdirilməlidir. Son dövrlərdə qoşunların təmas xətti və dövlət sərhədi boyunca nisbi sakitlik müşahidə olunur. Bu da münaqişənin həlli üzrə substantiv və intensiv danışıqların aparılması üçün yaxşı fon yaradır. Bu, əslə münaqişənin dondurulması və ya qəbuledilməz olan status-kvonun saxlanması anlamına gəlməməlidir. Qəti mövqeyimiz ondan ibarətdir ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də dövlət başçıları səviyyəsində status-kvonun dəyişdirilməsinin vacibliyini dəfələrlə vurğulayıblar. Münaqişənin həlli üzrə danışıqlar nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır.

Eyni zamanda, söhbət çərçivəsində Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə olundu.

**- Azərbaycanın bu məsələdə humanist xarakter daşıyan və "hamının hamıya" prinsipinə söykənən mövqeyinə Ermənistanın münasibəti necədir?**

- Prezident İlham Əliyev Azərbaycanın bu məsələdə mövqeyini vurğulayaraq bildirib ki, "hamının hamıya" prinsipi əsasında dəyişdirmə tam olmalı və o cümlədən Dilqəm Əsgərov və Şahbaz Quliyev onların arasında yer almalıdır. Humanist xarakter daşıyan bu kimi addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyir və ona görə də Ermənistan tərəfi bunu nəzərə almalıdır.

Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi və Azərbaycana qaytarılması məsələsini dövlətimizin başçısı ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və digər tərəf-müqabilləri ilə görüşlərdə hər dəfə qaldırır.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlətimizin başçısı Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi üçün böyük səylər göstərir və bu məsələni daim diqqətdə saxlayır.

**- Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın iki ölkə arasında rabitənin yaradılması barədə danışır. Bu barədə nə deyərdiniz?**

- Düşənbədə dövlətimizin başçısı ilə Ermənistan baş naziri arasında olan söhbət əsnasında razılıq əldə edilmişdi ki, zəruri hallarda əlaqə yaratmaq üçün imkanlar təmin edilsin. Bu əlaqələr müntəzəm xarakter daşımır, dövlət başçıları, xarici işlər və ya müdafiə nazirləri səviyyəsində olan təmaslar deyil, aşağı səviyyədə və lazım olan hallarda həyata keçirilir.

**- Kütləvi informasiya vasitələrində verilən məlumata görə, Belarus Prezidenti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının növbəti baş katibinin Belarusdan olacağını bildirib. Ermənistan tərəfi isə bunu təkzib edərək fərqli fikir səsləndirib. Bu barədə nə demək olar?**

- Sözügedən məsələ ilə bağlı biz də kütləvi informasiya vasitələrindən məlumat almışıq. Kuluarlarda gedən söhbətlər onu deməyə əsas verir ki, MDB ölkələrinin qeyri-rəsmi Zirvə görüşündən əvvəl Avrasiya İqtisadi İttifaqının Sammitində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi məsələsi müzakirə olunub. Çox dərinə getmək istəməzdim, amma bəzi mənbələrdən aldığımız məlumata görə KTMT-nin baş katibi məsələsi ilə bağlı iclasda gərgin vəziyyət yaranıb. Bizdə olan məlumata əsasən, tam əminliklə deyə bilərik ki, Ermənistan KTMT-nin baş katibi vəzifəsini itirib və Ermənistanın rəyi və fikri nəzərə alınmadan böyük ehtimalla yaxın gələcəkdə bu vəzifəyə Belarusun nümayəndəsi təyin olunacaq. Ermənistanın baş katib vəzifəsini özündə saxlamaqla bağlı bütün səyləri iflasa uğrayıb. Bu, ümumilikdə, Ermənistanın siyasəti və diplomatiyasının növbəti məğlubiyyətidir.

**- Hadisələrin bu məcrada inkişafını Azərbaycanın növbəti qələbəsi kimi qəbul etmək olarmı?**

- Bildiyiniz kimi, Azərbaycan KTMT-nin üzvü deyil və ölkəmiz təşkilat daxilində gedən proseslərə müdaxilə etmək fikrində deyil. Prezident İlham Əliyevin bu ilin noyabrında da Belarusa səfərindən öncə bu ölkənin səfirini qəbul edərkən səsləndirdiyi fikirlərə istinad etmək istərdim. Dövlətimizin başçısı bildirmişdi: "Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələnin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir". Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək üçün KTMT-nin arxasında gizlənməyə çalışır. Ermənistanın üzləşdiyi aprel məğlubiyyətinin təcrübəsi də bunu göstərdi.

Heç kimə sirr deyil ki, yeni baş katibin təyinatı məsələsini Prezident İlham Əliyev Ermənistan istisna olmaqla, KTMT-yə üzv olan bütün ölkələrin dövlət başçıları ilə bu və ya digər formada müzakirə edib.

Sözsüz ki, işğalçı dövlət olaraq, Ermənistanın çoxsaylı xarakter daşıyan hər bir siyasi, diplomatik, iqtisadi və digər müstəvilərdə olan məğlubiyyəti Azərbaycanın qələbəsi kimi dəyərləndirilə bilər. Çünki bu məğlubiyyətlərin şərtləndirilməsində Azərbaycanın rolu kifayət qədər böyükdür. Nəticə etibarilə, Ermənistanın təmhüquqlu üzv olduğu KTMT-də növbəti dəfə alçaldıcı məğlubiyyəti bu sıradan olan nümunələrdən biridir.

Prezident İlham Əliyev bəzilərini deklarativ deyil, dərin strateji düşüncə və praqmatik baxışlar əsasında siyasət məharətlə və müdriklikə "strateji diplomatiya" adlandırılan siyasət yürütmək iqtidarında olan şəxsiyyətdir. Bu "strateji diplomatiya" Azərbaycanın qələbəsini təmin edir, milli maraqlarımızın qorunmasına, ölkəmizin beynəlxalq münasibətlərdə mövqeyinin və rolunun gücləndirilməsinə xidmət edir.

# Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib






Dekabrın 2-7-də Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) IV qurultayı keçirilib. Qurultayın son günü BHİK-in rəhbər orqanlarına seçkilər keçirilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, qurultayda iştirak edən Azərbaycan həmkarlar ittifaqlarının nümayəndə heyətinin rəhbəri, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib.

Qeyd edək ki, qurultayın gedişində Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun ingilis dilində çap olunan "Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri" kitabı Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən iştirakçılara paylanıb.

# Ölkəmizdə insan hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub

## *Azərbaycanın bu sahədə təcrübəsi mütərəqqi nümunə kimi çıxış edir*



Dekabrın 10-da BMT Baş Məclisinin İnsan hüquqları haqqında Ümumi Bəyannaməni qəbul etməsindən 70 il ötür. İrqindən, cinsindən, dilindən, dinindən, mənşəyindən və siyasi əqidəsindən asılı olmayaraq, bütün insanların ləyaqət və bərabərliyini təmin edən bu Bəyannamə ümumbəşəri xarakterə malik olmaqla yanaşı, bir çox yeni müstəqil dövlətlərin konstitusiyaları, eləcə də qanunvericilik bazası üçün nümunə olmuşdur. Ümumiyyətlə, bu gün insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması məsələsi bütün dünyada böyük aktuallığa malikdir. Xüsusilə də, bu məsələ milli dövlətlərin daxili siyasət kursunda mühüm yer tutur. Əlbəttə, dünyada insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı çoxsaylı problemlər mövcuddur. Bir çox ölkələrdə və bütövlükdə müxtəlif regionlarda insan hüquqlarının pozulması faktlarına, eləcə də bu məsələ ilə bağlı bir sıra arzuolunmaz hallara rast gəlinir. Bu sahədə müasir müstəqil Azərbaycanın təcrübəsi isə müsbət və mütərəqqi nümunə kimi çıxış edir.

Ümumiyyətlə, Azərbaycan bütün azadlıqların təmin edildiyi müasir, demokratik ölkədir. İnkişafın milli modelini formalaşdıran Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən mühüm uğurlardan biri kimi dəyərləndirilir. Bütün azadlıqların təmin olunması isə Azərbaycan cəmiyyətinin üstün cəhətidir. Bütövlükdə, demokratik dəyərlər və təsisatların təşəkkül tapdığı müasir hüquqi dövlət olan Azərbaycanda daxili siyasət kursunun mühüm istiqamətlərindən birini insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi təşkil edir.

Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması, hüquqi dövlət və vətəndaş cəmiyyətinin təşəkkülü, inkişafı yönündə əldə olunan nailiyyətlər birmənalı şəkildə Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsidir. Belə ki, ölkəmizdə 1993-cü ildən indiyə kimi insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox mühüm addımlar atılıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası özündə ən mütərəqqi müddəaları əks etdirməklə yanaşı, ölkədə demokratik, hüquqi islahatların həyata keçirilməsində normativ-hüquqi baza olub. Bununla yanaşı, çoxsaylı beynəlxalq konvensiyalara qoşulan Azərbaycanda insan hüquq və azadlıqlarının təmin olunması uğurla həyata keçirilib, qanunvericilik mütəmadi olaraq təkmilləşdirilib. Digər tərəfdən, Azərbaycan Respublikası Şərqdə ölüm hökmünü ləğv edən ilk dövlətdir. Belə ki, Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışının ardından ölüm cəzasının icrasına moratorium qoyulub, sonra isə 1998-ci il 10 fevral tarixli qanunla bu cəza növü Şərqdə ilk olaraq Azərbaycanda ləğv olunub. Eyni zamanda, 1998-ci il iyunun 18-də Ulu öndər Heydər Əliyev tərəfindən İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı təsdiq edilib. Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncam ilə məhz həmin Dövlət Proqramının qəbul olunduğu gün - iyunun 18-i Azərbaycan Respublikasının İnsan Hüquqları Günü elan edilib.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən demokratik inkişaf siyasəti, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunmasına yönəlmiş sistemli fəaliyyət müasir dövrün çağırışlarına, eləcə də milli maraqlarımıza cavab verir. Bu sahədə Milli Fəaliyyət Proqramının qəbul edilməsi isə xüsusilə qeyd edilməlidir. Proqramın hazırlanması zamanı bir sıra ölkələrin, eləcə də BMT-nin təcrübəsindən istifadə olunub. Bu proqramı səciyyələndirən əsas xüsusiyyətlərdən biri də sənədin vətəndaş cəmiyyəti ilə birlikdə icra olunması məsələsidir. Təqdirəlayiq haldır ki, ötən dövrdə proqram uğurla həyata keçirilməkdədir. Ümumiyyətlə, ölkəmizdə insan hüquqlarının müdafiəsinə dair mühüm sənədlər qəbul edilib. Həmin sənədlərdə Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər əks olunub. Bununla yanaşı, yuxarıda da qeyd etdiyimiz kimi, ölkəmizdə insan hüquqları Konstitusiya çərçivəsində qorunur və Əsas Qanunun üçdə iki hissəsi məhz insan hüquqlarına həsr edilib. Ölkə Konstitusiyasına referendum yolu ilə edilən dəyişikliklərdə də bu faktor daim prioritet olub. Bu kontekstdə son olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı ilin 26 sentyabrında ümumxalq səsverməsi nəticəsində Əsas Qanuna edilən dəyişikliklərdə də insan hüquqları təminatının gücləndirilməsinə xüsusi yer verilib. Ümumxalq səsverməsi nəticəsində Konstitusiyaya edilən əlavə və dəyişikliklərin əsas məqsədi insan hüquq və azadlıqlarının yeni müdafiə mexanizmlərini müəyyənləşdirmək olub. Bu dəyişikliklərin əksəriyyəti, 15 maddəyə olmaqla, Konstitusiyanın İnsan və vətəndaş hüquqları və azadlıqları ilə bağlı olan fəslinə edilib. Bu, ümumi dəyişikliklərin təqribən 60 faizdən artıq hissəsidir.

Bütövlükdə isə, Azərbaycanın insan hüquq və azadlıqlarının təmin olunması sahəsində həyata keçirdiyi ardıcıl, məqsədyönlü tədbirlər və əldə edilən səmərəli nəticələr beynəlxalq miqyasda da təqdir olunur. Başqa sözlə, ardıcıl, məqsədyönlü və davamlı islahatların həyata keçirilməsi təqdirəlayiq hal kimi qiymətləndirilir. Nəticə etibarilə, mütərəqqi inkişaf modelinə və demokratik ölkə imicinə malik olan Azərbaycanda bütün azadlıqlar təmin olunub. Başqa sözlə, Azərbaycan dövləti insan hüquq və azadlıqlarının etibarlı təminatçısıdır.

**Nurlan QƏLƏNDƏRLİ**

# Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilib

Dekabrın 7-də Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, konfrans iştirakçıları Ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub, Ulu öndərin xatirəsinə ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla tanışlıqdan sonra abidə önündə xatirə şəkli çəkdirilib.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun konfrans iştirakçılarına təbrik məktubu oxunub.





Müəllim əməyinə verilən yüksək qiymət, təhsil müəssisələrində yaradılanlar tədrisin səviyyəsini artırıb, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilbəil artıb. Əvvəlki illərdə olduğu kimi, 2017-2018-ci tədris ilinin də nəticələri uğurlu olub, məzunlardan 1781-i ali məktəblərə, 615-i isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Onlardan 331-i 500-700 arası bal toplayıb, 6 məzun isə Prezident təqaüdünə layiq görülüb. Muxtar respublikada təhsil sahəsində görülən işlər müəllim nüfuzunu yüksəldib, müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artırıb. Bunun nəticəsidir ki, 2017-2018-ci tədris ili üzrə məzunların 658-i, yaxud 37 faizi ali təhsil müəssisələrinin pedaqoji ixtisaslarına qəbul olub.

Təhsil naziri Rəhman Məmmədov bildirib ki, müəllimlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Muxtar respublikanın 24 ümumtəhsil məktəbi "ən yaxşı məktəb", 40 müəllim isə "Azərbaycan Respublikasının ən yaxşı müəllimi" adına layiq görülüb. Müəllimlərdən 112-si "Azərbaycan Respublikasının Əməkdar Müəllimi", 181-i isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar Müəllimi" fəxri adlarına layiq görülüb, 104 müəllim "Tərəqqi" medalı ilə təltif olunub.

Təhsil naziri təhsilə və müəllimlərə göstərdiyi diqqət və qayğıya və Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransına ünvanladığı məktuba görə muxtar respublikanın bütün təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru Elbrus İsayev, Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva və Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Ülvanə Məmmədli çıxış ediblər. Çıxışlarda bildirilib ki, Azərbaycan xalqının milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunub, böyük hörmət və yüksək ehtiramla çəkilib. Sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, hər bir şəxs cəmiyyətdəki mövqeyinə, formalaşmasına və qazandığı biliklərə görə ilk növbədə müəllimlərinə borcludur. Çünki müəllimlər əsas vəzifəni gənclərin təhsili, təlim-tərbiyəsi məsələsini yerinə yetirirlər. Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Muxtar respublikanın təhsil müəssisələrində yaradılmış şərait müəllimləri daha yaxşı işləməyə sövq edir.

Çıxış edənlər təhsilin inkişafı üçün yaradılan şəraitə görə muxtar respublikanın müəllimləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Tədbirin aparıcıları görkəmli pedaqoqların əsərlərindən parçalar oxuyub, təhsillə bağlı müdrik fikirləri konfrans iştirakçılarının diqqətinə çatdırıblar.

Sonra görkəmli pedaqoq, Naxçıvanda ilk dünyəvi məktəbin əsasını qoymuş maarifçi Məhəmməd Tağı Sidqiyə həsr olunmuş "Xalqın müəllimi" sənədli filminə baxış olub.

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI MÜƏLLİMLƏRİNİN KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli müəllimlər!

Sizi - Naxçıvan Muxtar Respublikasının müəllimlərini səmimi qəlbdən salamlayır, konfransa öz işində uğurlar arzulayıram.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə müəllim əməyinə daim yüksək qiymət vermiş, təhsilin inkişafını diqqətdə saxlamış, Azərbaycan müəllimi ölkəmizin ziyalı təbəqəsinin aparıcı qüvvəsinə çevrilmişdir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də bu siyasət uğurla davam etdirilir. Hazırda Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında təhsil sahəsi davamlı inkişafa qovuşub, ixtisaslı müəllim kadrları hazırlanır və müəllim əməyinə qayğıkeş münasibət göstərilir.

Muxtar respublikada 200-dən artıq ümumtəhsil məktəbinin tikilməsi və ya yenidən qurulması, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpuslarının, universitet şəhərciklərinin, peşə məktəblərinin istifadəyə verilməsi pedaqoji fəaliyyət sahəsində geniş imkanlar açıb. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşmışdır.

Bu gün muxtar respublikada mütərəqqi təhsil metodlarının tətbiqi müəllim zəhmətinin bəhrələrini daha da artırır, ali və orta ixtisas məktəblərinə tələbə qəbulunda uğurlu nəticələr qazanılır, təhsil müəssisələrində təhsilli, vətənpərvər və geniş dünyagörüşə malik gənc nəsil yetişir.

Əminəm ki, muxtar respublika müəllimləri bundan sonra da təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.

Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransını Naxçıvan təhsilinin inkişafında mühüm mərhələ kimi dəyərləndirir, çətin və şərəfli fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

Hörmətlə,

**Naxçıvan Muxtar Respublikası**

**Ali Məclisinin Sədri Vasif Talıbov**

**Naxçıvan şəhəri,**
**07 dekabr 2018-ci il.**

* * *




Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək muxtar respublikada təhsilə göstərilən qayğıdan danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Ötən dövrdə muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi, o cümlədən məktəbəqədər və məktəbdənkənar təhsil, musiqi məktəbləri, Heydər Əliyev adına Hərbi Lisey, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilib istifadəyə verilib. Bu işlər 2018-ci ildə də davam etdirilib, 2096 şagird yerlik 8 ümumtəhsil məktəbi, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci və Ordubad Rayon Təhsil Şöbəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Hazırda 3 ümumtəhsil müəssisəsi və Naxçıvan Dövlət Universitetinin tibb fakültəsi üçün binaların tikintisi davam etdirilir.

Muxtar respublikanın ümumtəhsil məktəblərində 5500-dən artıq kompüter və 600-dən çox elektron lövhə quraşdırılıb, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilib, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunub. Təhsil müəssisələrinin pedaqoji kadrlara olan tələbatını ödəmək məqsədilə muxtar respublikanın ali təhsil müəssisələrində pedaqoji yönümlü ixtisaslar açılıb, yüksək səviyyəli müəllim kadrların hazırlanması diqqətdə saxlanılıb.

Qeyd olunub ki, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası da diqqətdə saxlanılıb, məhdud fiziki imkanlı uşaqlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün isə audio və elektron kitabxana yaradılıb.

Təhsil naziri qeyd edib ki, muxtar respublikanın təhsil müəssisələrində şagird, tələbə və müəllimlərin vahid geyim formasından istifadə etməsi tədrisin və təlim-tərbiyənin yüksəldilməsinə öz müsbət təsirini göstərib. 2018-ci ildən pedaqoji kadrların müsabiqə ilə işə qəbulu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açıb. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində 49 min 224 şagirdin təhsili ilə 6642 müəllim məşğul olur. Onlardan 44-ü yeni tədris ili ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə yüksək nəticə göstərərək işlə təmin olunub. Hazırda rayon mərkəzindən uzaq məsafədə yerləşən kənd məktəblərində fəaliyyət göstərən 80 müəllimə həvəsləndirmə tədbirləri tətbiq edilib. Müəllimlərin ictimai fəallığı da artıb. Belə ki, muxtar respublika müəllimlərindən 13-ü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Müəllimlərin maddi rifah halının yaxşılaşdırılması da diqqətdə saxlanılıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamları ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqları və dərs saatları artırılıb.

# <u>Aydın Hüseynov</u>: Azərbaycan dövləti ixracın artırılmasında, ölkə məhsullarının dünya bazarlarında yerinin möhkəmlənməsində maraqlıdır

Maliyyə naziri Samir Şərifovun dövlət televiziyasına müsahibəsi zamanı manatın möhkəmlənməsi ilə bağlı səsləndirdiyi fikirlərin bəzi ekspertlər tərəfindən təhrif edilməsinə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü Aydın Hüseynov deyib ki, nazir çıxışı zamanı manatın məzənnəsinin kəskin, ifrat möhkəmlənməsinin daxili istehsalçıların fəaliyyətinə mənfi təsir göstərdiyini, idxal üçün cəlbedici vəziyyət yaratdığını bildirib. Nazir qeyd edib ki, neft daxilolmalarının artıqlığı zamanı onların daha çox istifadəsi manatın məzənnəsinin daha da möhkəmlənməsinə təzyiq yaradır. Bu isə ixraca mənfi təsir edir, idxalın isə artmasına səbəb olur. Aydın Hüseynov bildirib ki, respublikamızda neftdənkənar iqtisadiyyatın inkişafı həyata keçirilən siyasi kursun mühüm prioritetlərindən biridir.



**"Ölkəmizdə aparılan islahatlar çərçivəsində, həmçinin qeyri-neft məhsullarının ixracının genişləndirilməsini hədəfləyən müvafiq tədbirlər həyata keçirilir. Beynəlxalq təcrübə əsas götürülməklə ixracın səmərəli təşviq mexanizmi işə salınıb. Respublikamızda ixracın stimullaşdırılması ilə bağlı imzalanan sənədlərə uyğun olaraq, "İxrac təşviqinin ödənilməsi qaydası", "İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı" və "İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar" təsdiq edilib. Eyni zamanda, "Made in Azerbaijan" brendi xarici ölkələrdə uğurla təbliğ olunur. Bütün bunlar ixracın stimullaşdırılması baxımından böyük önəm daşıyır və Azərbaycan dövləti ixracın artırılmasında, ölkə məhsullarının dünya bazarlarında yerinin möhkəmlənməsində maraqlıdır"**, - deyə qeyd edən millət vəkili nazir S.Şərifovun fikirlərinin bəzi ekspertlər tərəfindən qeyri-adekvat şəkildə şərh olunmasını ölkədə maliyyə gərginliyi yaratmaq cəhdi kimi dəyərləndirib.

YAP rəsmisi bildirib ki, milli valyutaların məzənnə dəyişikliyi bir sıra amillərlə şərtlənir ki, bu amillər sırasında iqtisadiyyatın durumu, monetar siyasətlə bağlı dövlətin siyasi iradəsi və bir sıra digər məsələlərlə yanaşı, büdcə siyasəti də önəmli rola malikdir. **"Azərbaycanın gələn il üçün büdcə layihəsi kifayət qədər praqmatik hazırlanıb və bütün iqtisadi risklər nəzərə alınıb. Qeyri-neft sektorunun sürətli inkişafı və bu sahə hesabına ixracın artması ölkəyə ötən illərlə müqayisədə daha çox xarici valyuta axınını təmin edir. Bundan başqa, neftin qiymətinin proqnozlaşdırılan həddə yaxın olması da Azərbaycanın gəlirlərinin sabit olmasına şərait yaradır. Milli iqtisadiyyatımızın real göstəricilərinə, həmçinin ölkədə aparılan monetar siyasətin mahiyyətinə istinad edərək demək mümkündür ki, hazırkı şəraitdə manatın kursunun dəyişəcəyi gözlənilmir və buna iqtisadi əsaslar da yoxdur"**, - deyə Aydın Hüseynov bildirib.

Milli Məclisin deputatı bir daha vurğulayıb ki, bəzi iqtisadçılar həqiqətdən uzaq, heç bir real iqtisadi əsası olmayan iddialarla ictimai rəyi manipulyasiya etməyə çalışırlar. O qeyd edib ki, bu kimi fikirlər milli valyutaya inamsızlıq formalaşdırmağa yönəlib: **"Vahid Əhmədov kimi təcrübəli iqtisadçının da fikirlərinin bu sırada olması təəssüf doğurur. Vahid Əhmədov əvvəllər də bu cür reallığı əks etdirməyən açıqlamalar verib və onun bu kimi proqnozları özünü doğrultmayıb. Bu gün müzakirə olunan fikirlərinin də heç bir reallığa söykənmədiyini söyləmək olar"**.

# Milli valyutamızın dəyər itirəcəyi ilə bağlı şayiələrin heç bir iqtisadi əsası yoxdur

*Son vaxtlarda ixracın genişlənməsinin nəticəsi olaraq respublikamıza valyuta daxilolmaları artıb ki, bu da manatın kursunun sabit qalmasını şərtləndirən çox mühüm amillərdən biridir*

Respublikamızda milli iqtisadiyyatımızın xarici mənfi şokların təsirindən qorunmasına, rəqabət qabiliyyətliliyinin yüksəlməsinə, qeyri-neft sektoru üzrə istehsal və ixrac imkanlarının genişləndirilməsinə və paralel şəkildə əhalinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsinə hədəflənən çevik monetar siyasət həyata keçirilir. Ölkədə aparılan monetar siyasətdə, o cümlədən də məzənnə çərçivələrinin və hədəflərinin müəyyənləşdirilməsində daxili amillərlə yanaşı, qlobal məkanda müşahidə edilən proseslərin nəzərə alınması da böyük aktuallıq daşıyır.



Yeri gəlmişkən, Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov da dekabrın 4-də dövlət televiziyasına müsahibəsi zamanı respublikamızın geniş xarici iqtisadi əlaqələrə malik olduğunu və bu çərçivədə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasının zəruriliyini əsaslandıraraq manatın möhkəmlənməsi ilə bağlı müəyyən fikirlər səsləndirib. Lakin daim bulanıq suda balıq tutmaq həvəsində olan bəzi "ekspertlər" və "iqtisadçılar" yenə də öz amplualarında qalaraq növbəti dəfə ajiotaj yaratmağa və gündəmdə qalmağa uğursuz cəhdlər göstəriblər. Beləlləri maliyyə nazirinin fikirlərini kontekstdən çıxararaq onun mahiyyətini bilərəkdən və ya bilməyərəkdən sosial şəbəkələrdə və ayrı-ayrı saytlarda təhrif ediblər. Çox təəccüblüdür ki, bu qəbildən olan "ekspertlər"in və "iqtisadçılar"ın sırasında deputat Vahid Əhmədov da yer alır. Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü olan bir deputatın 2019-cu ilin büdcə müzakirələrindən bir neçə gün sonra maliyyə nazirinin manatın möhkəmlənməsi ilə bağlı səsləndirdiyi fikirlərə ziddiyyətli münasibət bildirməsi yalnız təəssüf doğurur. **"Maliyyə naziri Samir Şərifovun dekabrın 4-də dövlət televiziyasına müsahibəsi zamanı manatın möhkəmlənməsi ilə bağlı səsləndirdiyi fikirlər tam aydın və başadüşüləndir və bu açıqlamanı devalvasiya anonsu kimi yozmaq ya düşünülmüş təxribatdır və ya diletant yanaşmadır".** Bu fikirləri Maliyyə Nazirliyinin mətbuat katibi Mais Piriyev KİV-ə açıqlamasında bildirib.

Maliyyə Nazirliyinin rəsmisi fikirlərinə davam edərək vurğulayıb: **"Nazir çıxışı zamanı bildirib ki, manatın məzənnəsinin kəskin, ifrat möhkəmlənməsi daxili istehsalçıların fəaliyyətinə mənfi təsir göstərir, idxal üçün cəlbedici vəziyyət yaradır ki, bu da Azərbaycan dövlətinin marağında deyil. Məhz buna görə də son illərdə Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi islahatların tərkib hissəsi kimi yeni Büdcə Qaydası qəbul edilib ki, bu qayda ilə neft sektorundan xarici valyutada daxilolmaların dövlət tərəfindən dövlət büdcəsində müəyyən edilən çərçivədə daxili valyuta bazarında satışı tənzimlənsin. Çünki neft daxilolmalarının artıqlığı zamanı onların daha çox istifadəsi manatın məzənnəsinin daha da möhkəmlənməsinə təzyiq yaradır. Bu isə maliyyə nazirinin qeyd etdiyi kimi, ixraca mənfi təsir edir, idxalın isə artmasına səbəb olur ki, bu da milli istehsal üçün, o cümlədən ixracla məşğul olanlar üçün faydalı deyil. Ona görə də bu mənfi təsirləri aradan qaldırmaq üçün dövlət büdcəsinin xərcləri qeyd olunan münbit çərçivədə saxlanılmalıdır".**

Qeyd etmək yerinə düşər ki, respublikamızda ixrac siyasi və maddi baxımdan güclü şəkildə dəstəklənir. Ölkəmizdə aparılan yeni nəsil islahatlar çərçivəsində, həmçinin qeyri-neft məhsullarının ixracının genişləndirilməsini hədəfləyən müvafiq tədbirlər həyata keçirilir. Respublikamızda beynəlxalq təcrübə əsas götürülməklə ixracın səmərəli təşviq mexanizmi işə salınıb. Eyni zamanda, "Made in Azerbaijan" brendi xarici bazarlarda yüksək səviyyədə təbliğ edilir. Son illərdə özəl bölmə təmsilçilərinin xarici ölkələrdə təşkil olunan nüfuzlu sərgilərə vahid ölkə stendində qatılmalarına dövlət tərəfindən dəstək verilir. Dövlət vəsaiti hesabına xarici ölkələrdə yaradılan logistik mərkəzlər, ticarət evləri də milli brendlə buraxılan məhsullarımızın təbliğinə və satışına müsbət təsir göstərir. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, cari ilin 9 ayında respublikamızdan qeyri-neft ixracı təxminən 14 faiz artıb ki, bu da çox yaxşı göstəricidir.

Maliyyə Nazirliyinin rəsmisi KİV-ə açıqlamasında onu da vurğulayıb ki, bu gün əldə edilmiş makroiqtisadi sabitlik və onun gələcəkdə qorunub saxlanılması məhz Büdcə Qaydasına riayət olunması, büdcə siyasətinin Mərkəzi Bank tərəfindən yürüdülən monetar siyasətə dəstəyi ilə sıx əlaqəlidir. Bu isə manatın mövcud məzənnəsinin sabit saxlanılmasını hazırda təmin edir və bundan sonra da təmin edəcəkdir. Bütövlükdə milli valyutaya inamın artması, məzənnə dəyişikliyi bir sıra amillərlə şərtlənir ki, bu amillər sırasında monetar siyasətlə bağlı dövlətin siyasi iradəsi ilə yanaşı, real sektordakı vəziyyət, ölkənin iqtisadi potensialı, maliyyə imkanları da önəmli rola malikdir. Respublikamız sadalanan bütün seqmentlər üzrə müsbət göstəricilərə malikdir. Nüfuzlu beynəlxalq reytinq agentliklərinin, o cümlədən də Davos İqtisadi Forumunun hesabatlarında Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi yüksək dəyərləndirilib.

Ölkədən qeyri-neft ixracının artması ilə yanaşı, birjalarda neftin qiymətinin 60 ABŞ dollarından yüksək formalaşması da manatın kursunun sabit qalmasını şərtləndirən çox mühüm amil qismində çıxış edir. Həm neft sektorundan, həm də qeyri-neft məhsullarının ixracı üzrə valyuta daxilolmalarının artması Azərbaycanın maliyyə imkanlarını genişləndirib. Hazırda respublikamız 45 milyard ABŞ dolları həcmində strateji valyuta ehtiyatlarına malikdir.

Bütün bu müsbət reallıqlar fonunda Azərbaycanda devalvasiya gözləntiləri ilə bağlı deyilənlərin əsassız şayiələr olduğu aydın görünür. Şübhəsiz, deputat Vahid Əhmədov da Milli Məclisdə iqtisadi sektora aid komitənin üzvü kimi, Azərbaycanın getdikcə artan iqtisadi-maliyyə imkanları barədə geniş məlumatlara malikdir. Bəs o, hansı səbəbdən maliyyə nazirinin manatın möhkəmlənməsi ilə bağlı səsləndirdiyi fikirləri kontekstdən çıxararaq şərh edir? Yeri gəlmişkən, Vahid Əhmədov əvvəllər də ölkədə süni maliyyə gərginliyi yaratmağa xidmət edən açıqlamalarla gündəmə gəlib. Lakin onun heç bir əsası və iqtisadi izahı olmayan "proqnozları" tez bir zamanda yalan çıxıb. Onun bu günlərdə ifadə etdiyi fikirlərinin də həqiqətdən uzaq olduğunu faktlar və mövcud reallıqlar sübut edir.

**Mübariz ABDULLAYEV**

# Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir

*Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi bu kateqoriyadan olan vətəndaşlara dövlətin yüksək diqqət və qayğısının daha bir bariz nümunəsidir*



Məlum olduğu kimi, ölkəmizdə hərbi qulluqçuların, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. Bu kateqoriyadan olan insanların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, onlara aylıq təqaüdlərin verilməsi dövlət siyasətinin çoxşaxəli səciyyə daşıdığını göstərir.

### ŞƏHİD AİLƏLƏRİNƏ ÖDƏNİLƏN TƏQAÜDÜN MƏBLƏĞİ BİR NEÇƏ DƏFƏ ARTIRILIB

Ölkəmizdə 2007-ci ilin əvvəlindən şəhid ailələrinin Prezidentin aylıq təqaüdü ilə təminatı həyata keçirilir. Ötən müddətdə şəhid ailələrinə ödənilən təqaüdün məbləği bir neçə dəfə artırılıb. Qeyd etmək yerinə düşər ki, bu məqsədlə şəhid ailələrinə 242 manat aylıq Prezident təqaüdü ödənilir. Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərinin böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, qalan az bir qismi isə əlilliyə görə müavinət alır. Həmçinin müvafiq kateqoriyadan olan insanların əmək pensiyasına hər ay əlavə vəsait ödənilir. Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə isə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət verilir. Şəhid ailələrindəki uşaqlara da bir sıra güzəştlər tətbiq olunur. Belə ki, şəhid ailələrindəki uşaqlara aylıq sosial müavinət verilir, eyni zamanda, şəhid ailələrinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. İl ərzində dövlət vəsaiti hesabına orta hesabla 7,1 min əlilliyi olan şəxsə və şəhid ailəsi üzvünə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sanator-kurort putyovkası və istirahət göndərişləri verilir. Özünəməşğulluq proqramına cəlb edilənlərin də əksəriyyəti məhz bu qəbildən olan ailələrdir. Cari ildə 158 şəhid ailəsi, 1000 nəfərdən çox əlilliyi olan şəxs (onlardan bir hissəsi Qarabağ müharibəsi əlilidir) bu proqramdan faydalanıb.

### ŞƏHİD AİLƏLƏRİNƏ VƏ ƏLİLLİYİ OLANLARA 6 063 MƏNZİL VERİLİB

Vətənimizin bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda rəşadətlə döyüşmüş və Azərbaycanın Milli Qəhrəmanı adını almış şəxslərə də dövlət ən yüksək səviyyədə qayğı göstərir. Bu gün Milli Qəhrəmanlarımıza və ya həlak olanların ailələrinə aylıq 1500 AZN Prezident təqaüdü ödənilir. Milli Qəhrəman ailəsi üzvlərinin əmək pensiyasına hər ay 110 manat əlavə edilir.

Respublikamızda müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinə yönələn tədbirlər barədə söhbət açarkən müvafiq kateqoriyadan olan insanların və ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının daim diqqət mərkəzində saxlanılmasını xüsusi qeyd etmək lazımdır. Dövlət başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamı Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzillə təminatı işlərinin gücləndirilməsinə yönəlib. Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 avqust 2018-ci il tarixli Sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərin sayının 2,4 dəfə artırılmasına, yəni 2018-ci ildə 600-ə yaxın mənzilin həmin insanlara verilməsinə imkan yaradıb. Cari ilin 1 oktyabr tarixinə kimi şəhid ailələrinə və əlilliyi olanlara ümumilikdə 6 063 mənzil verilib. Onlardan 5,6 mini şəhid ailələri və Qarabağ müharibəsi əlilləridir. Bu istiqamətdə görülən işlər davamlıdır və hazırda da uğurla həyata keçirilməkdədir. Bu məqsədlə 2018-ci ildə daha 583 mənzil və fərdi evin şəhid ailələrinə verilməsi nəzərdə tutulur. Həmçinin bu ilin sonuna kimi Bakı və Abşeron rayonunda 391 mənzilin satın alınaraq bu kateqoriyadan olan ailələrə verilməsi planlaşdırılır. Bu proses regionları da əhatə edir və regionlarda istifadəyə veriləcək binalarda 90 mənzil, inşası başa çatdırılacaq 67 fərdi ev şəhid ailələrinə veriləcək. Qalan və ilin sonunadək paylanacaq mənzil və fərdi evlərin sayı isə 548-dir.

### ŞƏHİD AİLƏLƏRİ DÖVLƏTİN DİQQƏT VƏ QAYĞISINI YÜKSƏK QİYMƏTLƏNDİRİRLƏR

Məlumdur ki, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Artıq noyabrın 14-dən birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir. Bu günə qədər vərəsələrin sənədlərinə baxılaraq onlardan 1223 şəhid hərbi qulluqçu üzrə 1509 vərəsəyə həmin ödəmənin verilməsi barədə qərar qəbul olunub və onlara müvafiq vəsaitlərin ödənişi prosesi davam edir. Ümumilikdə, 9531 şəhid hərbi qulluqçunun vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Bu məqsədlə 2018-ci il üçün 58 milyon manat, gələn il üçün isə 50 milyon manat vəsait ayrılıb.

Qeyd edək ki, şəhid ailələri dövlətin diqqət və qayğısını yüksək qiymətləndirirlər. Bizimlə söhbətində şəhid ailələrinin vərəsələri onlara dövlət başçısının müvafiq Fərmanına əsasən birdəfəlik ödəmələrin verilməsindən razılıqlarını bildirirlər.

Şəhid hərbi qulluqçu Aydın Fərəməz oğlu Əhmədovun atası Fərəməz Əhmədov deyib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizə göstərilən diqqət və qayğı çox yüksək qiymətə layiqdir: **"Oğlum Aydın Azərbaycanın çətin dövrlərində vətən torpağı uğrunda döyüşlərdə həlak olub. Onun vətən qarşısında xidmətlərinə görə valideynlərinə və vərəsələrinə diqqət göstərilməsi bizi qürurlandırır. Ölkəmizdə şəhid ailələrinə göstərilən davamlı diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm".**

Şəhid atası Fərəməz Əhmədov şəhid hərbi qulluqçuların vərəsələri üçün nəzərdə tutulan on bir min manat məbləğindəki birdəfəlik ödəməni heç bir çətinlik çəkmədən aldığını bildirib: **"Birdəfəlik ödəmə alan vərəsələr siyahısında olduğumuzu dəqiqləşdirdikdən sonra sənədləri hazırladım və müvafiq olaraq təqdim etdim. 1 ay müddət keçməmiş heç bir maneə ilə üzləşmədən həmin yardımı aldım".**

Azərbaycan Prezidenti İlham Əliyevin bu humanist siyasətini yüksək qiymətləndirən şəhid atası Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğıdan razılığını ifadə edib: **"Prezidentimiz oğlumun vətənə göstərdiyi xidməti dəyərləndirərək şəhid ailəsi kimi bizi mənzillə də təmin edib. Hazırda ailəmizlə birlikdə Prezident İlham Əliyevin verdiyi həmin evdə yaşayırıq. Biz dövlətimizdən və onun rəhbərliyindən bu qayğıya və diqqətə görə həddindən artıq razıyıq".**

Şəhid hərbi qulluqçu Ələddin Əbil oğlu Hüseynovun atası Əbil Hüseynov "Yeni Azərbaycan" qəzetinin müxbirinin sualına cavab olaraq bildirib ki, şəhidin ailəsi vəsaitin alınması üçün müvafiq sənədləri təqdim edərək həmin ödənişi almaq hüququnu təsdiqləyib. Bundan sonra isə ailə qısa vaxt ərzində birdəfəlik ödəməni alıb. Verilən birdəfəlik ödəmənin şəhid ailələrinin ehtiyaclarının qarşılanması üçün böyük dəstək olduğunu bildirən Ə.Hüseynov şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident İlham Əliyevin atdığı addımları yüksək qiymətləndirib: **"Yeri gəlmişkən, şəhid olan oğluma görə dövlət başçısı bizə mənzil də verib. Biz yüksək diqqət və qayğıya, həyata keçirilən humanist siyasətə görə Prezident İlham Əliyevə minnətdarıq".**

**QAŞQAY**

# Astanada keçirilən beynəlxalq konfransda Azərbaycanın korrupsiyaya qarşı mübarizə strategiyasına böyük maraq göstərilib

Astanada "Qlobal kontekstdə korrupsiyanın qarşısının alınması" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, 9 dekabr - Korrupsiyaya Qarşı Beynəlxalq Mübarizə Gününə həsr olunan konfransda ölkəmizi Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev təmsil edib.

Qazaxıstan Respublikasının Dövlət Qulluğu Məsələləri və Korrupsiyaya Qarşı Mübarizə Xidmətinin ATƏT-in və BMT-nin İnkişaf Proqramının dəstəyi ilə təşkil etdiyi tədbirə bir sıra xarici ölkələrin antikorrupsiya qurumlarının, beynəlxalq təşkilatların, media qurumlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri qatılıblar.

Tədbirdə korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların səyləri və dövlət antikorrupsiya qurumlarının rolu, bu sahədə məlumatlılığın artırılmasında beynəlxalq reytinqlərin əhəmiyyəti, işgüzar dairələrin və vətəndaş cəmiyyətinin töhfəsi mövzularında məruzələr dinlənilib.

"Korrupsiyaya qarşı təsirli mübarizənin zəmini olan institusional sabitlik" mövzusunda məruzə ilə çıxış edən Elnur Musayev Azərbaycanda institusional quruculuq sahəsində reallaşdırılan uğurlu islahatlar nəticəsində dövlət idarəçiliyinin gücləndiyini və sabitliyin təmin olunduğunu vurğulayıb. O, korrupsiyaya qarşı mübarizə strategiyasının tutarlı nəticələri barədə məlumat verib.

Konfransda bölgənin digər ölkələri ilə müqayisədə Azərbaycanın sabit və davamlı inkişaf edən antikorrupsiya modeli uğurlu təcrübə kimi təqdir edilib.

Tədbirdə korrupsiyaya qarşı mübarizədə səylərin gücləndirilməsi, əməkdaşlığın genişləndirilməsi və s. məsələlər müzakirə olunub.

# Ölkə iqtisadiyyatı bu il üçün qarşıya qoyulmuş məqsədlərə nail olmaq əzmindədir



Milli Məclisin deputatı Tahir Mirkişili www.yap.org.az saytına müsahibə verib:

**- Tahir müəllim, bildiyimiz kimi, noyabrın 30-da Milli Məclis tərəfindən 2019-cu ilin büdcə zərfinə daxil olan sənədlər qəbul olundu. İlk olaraq, gələn ilin dövlət büdcəsinin üstün cəhətləri haqqında fikirlərinizi bilmək istərdik...**

- Başa çatmaqda olan 2018-ci ilin sosial-iqtisadi nəticələri onu deməyə əsas verir ki, ölkə iqtisadiyyatı bu il üçün qarşıya qoyulmuş məqsədlərə nail olmaq əzmindədir. Aparılmış iqtisadi və idarəetmə islahatları nəticəsində ölkədə makroiqtisadi sabitlik qorunub möhkəmlənmiş, manatın kursu sabit olmuş və kursa olan təhlükələrin böyük əksəriyyəti aradan qaldırılmış, qeyri-neft sektoru inkişaf etmiş, ixracın həcmi və strateji valyuta ehtiyatları artmış, yeni iş yerləri yaradılmışdır.

2018-ci ilin 9 ayının nəticələrinə görə büdcə gəlirlərinin yığılmasının proqnozlarına artıqlaması ilə əməl olunması iqtisadi artımın öz əksini büdcədə də tapmasının bir göstəricisidir. Bütün beynəlxalq təşkilatlar (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, AYİB) 2019-cu ildə Azərbaycanda ÜDM-in artmasını proqnozlaşdırırlar. Azərbaycan hökuməti də 2019-cu il üçün ÜDM-in 3,6% artmasını planlaşdırır. Belə bir şəraitdə 2019-cu il dövlət büdcəsinin də bu iqtisadi reallığa əsaslanması qanunauyğundur.

Manat ifadəsində 2019-cu ilin dövlət büdcəsi Azərbaycanın ən böyük büdcəsidir. Büdcənin həm gəlir, həm də xərc hissəsində artım planlaşdırılır. 2019-cu ildə aparılacaq əhatəli vergi islahatlarının nəticələri də büdcədə əks olunmuşdur.

**- 2019-cu ilin dövlət büdcəsi həmçinin sosialyönümlü və investisiyayönümlü büdcə kimi səciyyələndirilir. Bu barədə nə deyə bilərsiniz?**

- Prezident İlham Əliyevin güclü sosial siyasəti hər zaman dövlət büdcəsində də əksini tapıb. 2019-cu il büdcə xərclərinin hər 100 manatından 32 manatının sosial xərclərə, 27 manatının isə investisiya xərcləri olması büdcənin bir tərəfdən sosial təminatı, digər tərəfdən isə iqtisadi aktivliyi dəstəkləyəcəyini deməyə imkan verir.

İnflyasiyanın səviyyəsinin 3,8%, əhalinin real gəlirlərinin artımının isə 5,9% proqnozlaşdırılması əhalinin maddi rifah halına müsbət təsirin olacağını deməyə imkan verir. Təqaüd və sosial müavinətlərin, qaçqın və məcburi köçkünlərə sosial dəstəyin artırılması, sosial mənzillərin tikintisi üçün əlavə vəsaitin nəzərdə tutulması da ciddi məqamlardır.

**- Gələn ilin büdcə zərfinə daxil olan digər sənədlərin əhəmiyyəti nədən ibarətdir. Əvvəlki illərlə müqayisədə növbəti il üçün nə kimi müsbət yeniliklər var?**

- 2019-cu ilin büdcəsi ilk dəfə olaraq ölkə Prezidentinin Fərmanı ilə təsdiq olunmuş yeni büdcə qaydalarına uyğun hazırlanıb. Bu isə büdcənin icrasının 2019-cu ildə xarici konyunkturada baş verən dəyişikliklərdən, xüsusən də neft qiymətlərinin dəyişməsindən az asılı olacağını deməyə imkan verir ki, bu, çox mühüm yenilikdir.

**- Ümumiyyətlə, dövlət büdcəsində qeyri-neft sektorunun çəkisi barədə də fikirlərinizi bilmək istərdik...**

- 2019-cu il üçün dövlət büdcəsi gəlirlərinin 40,2%-i qeyri-neft sektoru hesabına formalaşacaq. Ümumilikdə, 2019-cu ildə ÜDM-in 61,6%-i qeyri-neft sektoruna aid olacaq. Növbəti ildən vergi islahatlarının aparılması ölkədə şəffaflığı artıracaq, qeyri-neft sektorunun daha da inkişafına səbəb olacaqdır. Və nəticə olaraq, dövlət büdcəsinin də qeyri-neft sektoru gəlirlərinin gələcəkdə daha da artması hədəflənir.

**- Yeri gəlmişkən, hazırda ölkə iqtisadiyyatında qeyri-neft sektorunun artım perspektivlərini necə dəyərləndirirsiniz?**

- Qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkədə genişmiqyaslı işlər görülür. Həm sənaye sahəsində, həm aqrar sektorda, həm də xidmət sektorunda görülən işlər bütövlükdə qeyri-neft sektorunda artımın daha da sürətlənməsini şərtləndirəcək.

Qeyri-neft sektorunun 2019-cu ildə 3,9% artım ilə proqnozlaşdırılması görülən işlərin nəticəsi olaraq proqnozlaşdırılıb. Ölkəmizdə qeyri-neft sektoru potensialı çox böyükdür. Beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi bu potensialı reallaşdırmaq üçün unikal şanslar yaradıb. Sahibkarların bu imkanlardan daha çox yararlanması və ixracın həcminin daha da artırılması üçün dövlət tərəfindən intensiv tədbirlər görülür. Əminəm ki, növbəti ildə biz Azərbaycan iqtisadiyyatının daha dinamik inkişafının şahidi olacağıq.

# Fərid Cəfərov: Gənclər Fondunun xüsusi məşğulluq proqramında könüllülük fəaliyyətinə də üstünlük veriləcək

Gələn ildən Azərbaycan Respublikası Gənclər Fondunun xüsusi məşğulluq proqramı həyata keçiriləcək. Bu proqramı iş təcrübəsi olmayan və iş tapmaqda çətinlik çəkən gənclərin işə cəlb edilən zaman əməkhaqlarının bir il müddətində qismən Gənclər Fondu tərəfindən maliyyələşdirilməsini nəzərdə tutur.



AZƏRTAC xəbər verir ki, bunu Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov dekabrın 7-də jurnalistlərə müsahibəsində deyib.

F.Cəfərov bu proqrama cəlb ediləcək gənclər arasında könüllülük fəaliyyəti ilə məşğul olanlara da xüsusi üstünlük veriləcəyini vurğulayıb. Bildirib ki, Gənclər Fondu könüllülərin məşğulluğunun təmin olunması ilə bağlı könüllülük fəaliyyəti göstərən digər təşkilatlarla birlikdə xüsusi proqramlar həyata keçirməyi planlaşdırır.

# Vətənpərvər gənclər yetişdirmək ən müqəddəs işdir

*Bu yöndə həyata keçirilən tədbirlərə öz töhfəsini vermək Vətən torpaqları işğal altında olan Azərbaycanın hər bir vətəndaşının borcudur*




Vətənpərvərlik hissi hər bir millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətləri əsasında formalaşır. Tarixən bu məfhum yeni dövlətlərin yaranması, milli-azadlıq hərəkatlarının vüsət alması zamanı, xüsusilə müharibə ərəfəsində daha aktual olub. Müharibə və sülh dövründə vətənpərvərliyin əsasını vətənə, dövlətə sadiqlik və öz canını bu müqəddəs amal üçün qurban verməyə hazır olmaq duyğuları təşkil edib.

Azərbaycanda da həmişə Vətən, torpaq ana kimi əziz hesab edilib, onun uğrunda canını fəda etmək müqəddəs vəzifə kimi qarşıya qoyulub. Təsadüfi deyil ki, istiqlal şairimiz Əhməd Cavad himnimizdə "Azərbaycan" adlı Vətən üçün hər bir gəncin canından keçməyə hazır olduğunu birmənalı şəkildə qeyd edib.

27 il əvvəl müstəqillik əldə edən Azərbaycanın erməni işğalına məruz qalması da gənc vətən övladlarının səfərbər olmasını labüdləşdirdi. Çünki torpaqlarımızın azad edilməsi və dövlətçiliyimizin qorunmasında əsas məsuliyyət gənclərin üzərinə düşür.

Bu baxımdan, ümumtəhsil müəssisələrinin X-XI sinif şagirdlərinə "Gənclərin çağırışaqədərki hazırlığı" fənninin tədrisi həm hərbi xidmətə hazırlıq, həm də vətənpərvərlik hissinin aşılanması işində böyük əhəmiyyət daşıyır. Gənclərin və uşaqların hərbi düşərgələrə cəlb olunması, onların arasında müxtəlif hərbi oyunların, vaxtaşırı Hərb Tarixi Muzeyinə ekskursiyaların təşkili də təqdirəlayiq addımlardandır.

Prezident İlham Əliyevin 13 fevral 2012-ci il tarixli Fərmanı ilə yaradılan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) də gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün çoxsaylı tədbirlər həyata keçirir. SHXÇDX-nin Azərbaycanın bütün rayonlarında "Vətənin müdafiəsinə hazıram!" devizi altında keçirilən tədbirləri bu işdə böyük rol oynayır.

Xatırladaq ki, SHXÇDX son 7 il ərzində gənclərin hərbi xidmətə çağırış prosesinin düzgün qurulması və mövcud problemlərin həll olunması baxımından xeyli işlər görüb. SHXÇDX rəisi general-leytenant Arzu Rəhimovun mütəmadi olaraq bölgələrdə vətəndaşları qəbul etməsi isə bu prosesə mühüm töhfə verir. SHXÇDX internet saytı üzərindən də müxtəlif xidmətlər göstərir. 2013-cü ildə istifadəyə verilən çağırışçılara hansı hərbi hissədə xidmət keçmələri barədə məlumatların verilməsi layihəsi isə əsas xidmətlərdən biridir.

Beləliklə, gənclərə təhsil aldığı dövrdə vətənpərvərlik hissinin aşılanması, SHXÇDX tərəfindən valideynlərə və çağırışçılara yüksək səviyyədə xidmətin göstərilməsi gənclərin vətənpərvər ruhda yetişmələrində və ruh yüksəkliyi ilə hərbi xidmətə yollanmalarında böyük rol oynayır. Bu müqəddəs fəaliyyətə töhfə vermək isə Vətən torpaqları işğal altında olan Azərbaycanın hər bir vətəndaşının borcudur.

**Qaşqay ZİYƏDDİNOĞLU**

**Yazı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 7-ci ildönümü münasibətilə elan edilmiş yazı müsabiqəsinə təqdim olunur**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Bölgələrdə kənd təsərrüfatının inkişafı ilə bağlı intensiv tədbirlər həyata keçirilir

## *Bir sıra rayonlarda gələn ilin yazlıq məhsulu üçün əkin işlərinə başlanılıb*






Son illərdə ölkəmizdə aqrar sektorun inkişafına xüsusi diqqət göstərilir. Azərbaycan kənd təsərrüfatının potensialından səmərəli istifadə etməklə bir tərəfdən ərzaq məhsullarına olan daxili tələbatı sırf yerli istehsal hesabına ödəməyi, digər tərəfdən isə aqrar sektordan ixrac həcmlərini artırmaqla respublikaya əlavə valyuta axınını təmin etməyi hədəfləyib. Aqrar sektorun inkişafı, eyni zamanda, bölgələrdə iqtisadi aktivliyin artmasına və fəal məşğul əhalinin əmək bazarına çıxış imkanlarının genişlənməsinə müsbət təsir göstərir ki, bu da dərin sosial əhəmiyyətə malikdir.

Regionlarda aqrar sektorun inkişafı, bu sahədə istehsal və ixrac imkanlarının genişləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir. Cari ilin 9 ayında respublikamızda kənd təsərrüfatı 4,3 faiz artıb ki, bu da kifayət qədər yaxşı göstəricidir. Perspektiv inkişafla bağlı proqnozlar isə daha nikbindir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində kənd təsərrüfatında aparılan islahatların gələcəkdə daha yaxşı nəticələr əldə olunmasına imkan verəcəyinə əminliyini bildirərək vurğulayıb: **"Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Mənə məruzə edildi, mən bu islahatları dəstəklədim. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik".**

Yeri gəlmişkən, bölgələrimizdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər davamlı xarakter alıb. Məsələn, İsmayıllı rayonunda gələn ilin yazlıq kartof əkini üçün hazırlıq işlərinə başlanılıb. Artıq bütün ərazilərdə dondurma şumu çıxarılır, yüksək reproduksiyalı toxum tədarük edilir. Rayonda kartof toxumuna tələbatın daha yaxşı ödənilməsi üçün kartof toxumçuluğu təsərrüfatı da yaradılıb. Bu, fermerlərin və fiziki şəxslərin məhsuldar kartof toxumuna tələbatının ödənilməsində mühüm rol oynayacaq.

Qeyd edək ki, rayonda taxılçılıq, meyvəçilik və tərəvəzçiliklə yanaşı, kartofçuluq da inkişaf edir. Hər il rayon üzrə orta hesabla 800-1000 hektar sahədə kartof əkilir. Son üç ildə kartof intensiv becərmə texnologiyalarını özündə birləşdirən sənaye üsulu ilə əkilir. Təsadüfi deyil ki, 2014-cü ildə hər hektardan məhsuldarlıq 84 sentner idisə, cari ildə məhsuldarlıq 117 sentner olmaqla, məhsul istehsalı 6066 tondan 10415 tona çatdırılıb.

Kürdəmir rayonunda da payızlıq kartof yığımı yekunlaşıb və sahələrdən 4493 ton məhsul götürülüb. Cari mövsümdə torpaq mülkiyyətçiləri 292 hektarda təkrar kartof yetişdiriblər. Payızlıq kartof rayonun ən çox Kürqırağı ərazilərində, o cümlədən Axtaçı, Mehdili, Muradxan inzibati ərazi dairələrində əkilib. Bu il rayonda ötən ilkindən 1074 ton çox olmaqla, 15 min 842 ton kartof istehsal edilib. Hazırda gələn ilin əkini üçün ciddi hazırlıq işləri aparılır.

Oğuz rayonunda isə fındıqçılığın inkişaf etdirilməsi məqsədilə bu ilin payız mövsümündə dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid torpaq sahələrində 240 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulur. Mövsümün əvvəlindən indiyədək 113 hektar sahədə yeni fındıq bağları salınıb və ting əkini dekabrın sonunadək davam edəcək.

Son iki ildə rayon ərazisində 1402 hektar sahədə yeni fındıq bağları salınaraq mövcud bağların ümumi sahəsi 3252 hektara çatdırılıb. Bu bağların 1805 hektarı barverəndir. Bu il rayonun fındıq bağlarından 1000 tonadək məhsul tədarük olunub. Fındıq istehsalı ötən illə müqayisədə 100 tona yaxın artıb.

Prezident İlham Əliyevin kənd təsərrüfatının ixrac potensialı yüksək sahələrindən olan fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıqların icrasını təmin etmək məqsədilə son illər Zaqatala rayonunda da yeni fındıq bağlarının salınması istiqamətində davamlı iş aparılır. 2018-ci ilin yaz mövsümündə rayon ərazisində 352 hektar, payızın ötən dövründə isə 520 hektar yeni fındıq bağları salınaraq, mövcud fındıq bağlarının ümumi sahəsi 19 min 23 hektara çatdırılıb. Bu bağların 10 min 571 hektarı barverəndir. Cari ilin sonunadək daha 480 hektar sahədə yeni fındıq bağlarının salınması planlaşdırılır. Qeyd edək ki, cari ildə rayonun fındıq bağlarından 15 min tondan çox məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 1600 tona yaxın artıb.

Zərdab rayonunda isə çəltik yığımı başa çatıb və sahələrdən 939,4 ton məhsul götürülüb. Cari ildə 5 inzibati ərazi dairəsi üzrə 204 hektarda çəltik yetişdirilib. Hər hektardan orta məhsuldarlıq 46 sentner olub. Ən yüksək məhsuldarlıq 110 hektarda çəltik əkilən Məlikli inzibati ərazi dairəsində qeydə alınıb - 51,1 sentner. Yuxarı Seyidlər, Qoruqbağı inzibati ərazi dairələrində də məhsuldarlıq yaxşı olub.

Qeyd edək ki, Zərdab çəltikçiliyin inkişafı üçün böyük potensialı olan rayonlardandır. Son illər bazarlarda yerli düyüyə tələbat getdikcə artır. Ötən il sentyabrın 3-də Prezident İlham Əliyevin Sədrliyi ilə Lənkəranda keçirilən çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə həsr olunan respublika müşavirəsində dövlətimizin başçısının qarşıya qoyduğu konkret vəzifələr rayonda çəltikçiliyin inkişafına böyük təkan verib. Əkin sahələri artırılıb, məhsul istehsalı 1,2 dəfə çox olub. Gələn il də əkin sahələrinin artırılacağı gözlənilir.

Cənub bölgəsində yeni sitrus bağlarının salınmasına diqqət artırılıb. Xüsusilə təcrübəli fermerlər Lənkəranda hallabonq (dekopon) bağlarının salınmasına üstünlük verirlər. Belə təsərrüfatlardan biri də rayonun Sütəmurdov kəndi ərazisindədir. Cənubi Koreyadan gətirilən və ilk dəfə Lənkəran rayonunun Sütəmurdov kəndində 10 hektar ərazidə əkilən bu sitrus meyvəsi dadı, görünüşü və məhsuldarlığı ilə fərqlənir.

Aqronom Xalıq Talıbov bildirib ki, kənd ərazisində ümumi sitrus bağının sahəsi 80 hektardan çoxdur. Bunun 10 hektarında təxminən 4 minədək hallabonq ağacı əkilib: **"Sitrus meyvəsi olan hallabonq sağlamlıq üçün çox faydalıdır. Ölkəmizdə 2015-ci ildən əkilməyə başlanıb və Lənkəranda rayonlaşdırılıb. Hallabonq ağacı əkiləndən 2-3 il sonra məhsul versə də, tam məhsula düşməsi təxminən 8-10 ilə olur. İldə 200-300 kiloqram məhsul verə bilir. Əkin yeri yaxşı olarsa, ildə 3-4 dəfə məhsul götürmək mümkündür. Bizim ölkə üçün yeni sitrus meyvəsi olsa da, insanlar tərəfindən böyük maraq var. Bu yaxınlarda Lənkəranda keçirilən sitrus festivalında da insanlar bu meyvəyə böyük maraq göstərdilər".**

Bu təsərrüfatı salan "Gilan Orchards" MMC-nin aqronomunun sözlərinə görə, hallabonq meyvəsi həm daxili, həm də xarici bazarda satışa çıxarılacaq. Xarici bazar kimi, ilkin olaraq Rusiyaya göndəriləcək. Qeyd edək ki, təkcə ötən il rayonda 75-80 hektar sahədə hallabonq bağı salınıb. Bu sitrus meyvəsinə qənnadı, kosmetika, ətriyyat, şirə və şərabçılıq sahələrində də tələbat var.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təşəbbüsü ilə Qazax rayonunda aztəminatlı ailələr üçün meyvə bağları salınıb. Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində keçirilən mərasimdə yeni salınmış ərik bağlarının sənədləri 4 aztəminatlı ailənin başçısına təqdim edilib. Bildirilib ki, IDEA İctimai Birliyinin təşəbbüsü ilə salınan ərik bağları ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyət kəsb edəcək. Qeyd olunub ki, bu layihə həm də iqtisadi mahiyyət daşıyır. Bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı məhsullarının idxalından asılılığının azalmasına da töhfə verəcək. Qeyd edək ki, ərik bağlarının salınması üçün Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 2 hektar sahə ayrılıb. Aksiya zamanı 200 nəfər yerli fəal gəncin iştirakı ilə ərazidə 1000 ədəd ərik ağacı əkilib.

Yeni salınan ərik bağları aztəminatlı ailələrin başçıları - Qazaxbəyli kənd sakinləri Qabil Qocayev, Valeh Seyidov, Müşgül Nəbiyev və Fərhad Fərzəliyev arasında bərabər bölünərək, təmənnasız olaraq onların istifadəsinə verilib.

Göygöl rayonunda da aztəminatlı ailələr üçün meyvə bağları salınıb. Bu münasibətlə Göygöl rayonunun Dozular kəndi ərazisində keçirilən mərasimdə yeni salınmış qoz bağlarının sənədləri üç aztəminatlı ailənin başçısına təqdim edilib.

Bildirilib ki, IDEA İctimai Birliyinin təşəbbüsü ilə salınan qoz bağları ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyət kəsb edəcək. Qeyd olunub ki, bu layihə həm də iqtisadi mahiyyət daşıyır. Bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı məhsullarının idxalından asılılığının azalmasına da töhfə verəcək. Qoz bağlarının salınması üçün Göygöl rayonunun Dozular kəndi ərazisində 2 hektar sahə ayrılıb. Aksiya zamanı 200 nəfər yerli fəal gəncin iştirakı ilə ərazidə 312 ədəd qoz ağacı əkilib.

Yeni salınan qoz bağları aztəminatlı ailələrin başçıları - Çaylı kənd sakini Eşqin İsmayılov, Pənahlılar kənd sakini Tacəddin İmanov və Dozular kənd sakini Lətifə Zeynalova arasında bərabər bölünərək, təmənnasız olaraq onların istifadəsinə verilib.

İmişli rayonunda da aztəminatlı ailələr üçün meyvə bağı salınıb. Bu münasibətlə İmişlinin Otuziki kəndi ərazisində keçirilən mərasimdə yeni salınmış nar bağlarının sənədləri üç aztəminatlı ailənin başçılarına təqdim edilib. Bildirilib ki, IDEA İctimai Birliyinin təşəbbüsü ilə salınan nar bağı ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyət kəsb edəcək. Nar bağının salınması üçün İmişli rayonunun Otuziki kəndi ərazisində iki hektar sahə ayrılıb. Aksiya zamanı 200 nəfər yerli fəal gəncin iştirakı ilə ərazidə 1000 ədəd nar ağacı əkilib. Yeni salınan nar bağları aztəminatlı ailələrin başçıları Tahir Abbasov, Rövşən Abbasov və Rüfət Abbasov arasında bərabər bölünərək, təmənnasız olaraq onların istifadəsinə verilib.

**Pərviz SADAYOĞLU**

# Azərbaycanda mötəbər tədbirlərin yüksək səviyyədə təşkil olunmasında könüllülərin rolu böyükdür

## *Bakıda Azərbaycan könüllülərinin həmrəylik festivalı keçirilib*



Dekabrın 7-də Bakı Konqres Mərkəzində Azərbaycan Respublikası Gənclər Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Gənclər və İdman nazirliklərinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə yüzlərlə gəncin və bütün könüllü təşkilatlarının təmsil olunduğu Azərbaycan könüllülərinin həmrəylik festivalı keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzinin foyesində ölkəmizdə könüllülük hərəkatına dair stendlər quraşdırılıb, 70-dək şirkətin iştirakı ilə əmək yarmarkası təşkil olunub.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov festivalın açılışında çıxış edərək ölkəmizdə könüllülük hərəkatının inkişafı və təbliği istiqamətində görülən işlərdən danışıb. O, könüllü gənclərimizin beynəlxalq arenada qazandıqları uğurlardan və Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin könüllülük hərəkatına diqqət və qayğısından söhbət açaraq deyib: **"Bu gün ilk dəfə keçirilən festivalda ölkəmizdə könüllülük hərəkatının üzvləri iştirak edirlər. Festival çərçivəsində, həmçinin doqquz təşkilat öz stendlərində könüllülük fəaliyyəti ilə bağlı gördükləri işlərə dair təqdimatlar edirlər. Könüllülük fəaliyyətinin əsasında cəmiyyət naminə təmənnasız işlərin görülməsi dayanır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Gənclər Fondu da könüllülük fəaliyyətinə dəstək olan qurumlardan biridir. Fondun fəaliyyət göstərdiyi yeddi il ərzində bu istiqamətdə yüzlərlə layihə icra olunub. Azərbaycanda keçirilən beynəlxalq səviyyəli tədbir və yarışların uğurlu təşkilində könüllülərin rolu böyükdür. Buna görə də onlara dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva könüllülərə, onların fəaliyyətinə yüksək dəyər verirlər. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır".**

Fondun icraçı direktoru bütün könüllüləri təbrik edib, onlara uğurlar arzulayıb.

Gənclərin Dünya Assambleyası beynəlxalq təşkilatının baş katibi Ediola Paşollari çıxışında Beynəlxalq Könüllülər Gününün tarixi barədə məlumat verib. O, könüllülük fəaliyyətinin gənclərin inkişafına təkan verdiyini, onlara humanistlik duyğuları aşıladığını diqqətə çatdırıb.

Rusiya Federasiyasının Milli Gənclər Şurasının sədri Qriqori Petuşkov Beynəlxalq Könüllülər Günü münasibətilə Azərbaycan gənclərinə təbriklərini çatdırıb. Könüllülüyü nəcib fəaliyyət adlandıran Q.Petuşkov könüllülərimizin fəaliyyətini yüksək qiymətləndirib. Qonaq, həmçinin öz ölkəsində gənclərin könüllülük fəaliyyətindən də danışıb.

Tədbirin gedişində "ASAN Könüllüləri"nin, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin, "Formula 1 Könüllüləri"nin və "Bir Könüllüləri"nin nümayəndələri təmsil etdikləri qurumların fəaliyyəti barədə məlumat veriblər.

Sonra Azərbaycan Respublikası Gənclər Fondunun "Gənc könüllü" proqramının təqdimatı olub.

Rəsmi hissədən sonra festival işini "Tələbə və gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsi, Könüllülük hərəkatının inkişafı sahəsində real uğur nümunələri", "İnklüziv könüllülük - könüllülüyü ictimaiyyətə necə açıq etmək olar?" və "Könüllülük sahəsində beynəlxalq təcrübə və standartlar" mövzularında paralel sessiyalarla davam etdirib.

Festival çərçivəsində, həmçinin Bakı Konqres Mərkəzinin foyesində oyun, əyləncə və intellektual zonalar yaradılıb, gənclər arasında müxtəlif maraqlı oyunlar və müsabiqələr keçirilib, fərqlənənlər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Panel müzakirələrdə fəal iştirak edən və təşkilatlar tərəfindən namizədliyi irəli sürülmüş könüllülər sertifikatlarla təltif olunublar.

Festival çərçivəsində, həmçinin il ərzində yüksək fəallıq göstərən 100 gənc üçün ikigünlük qış düşərgəsi təşkil ediləcək.

# "Terror multikulturalizmə qarşı "Azərbaycanlıların soyqırımı-100" adlı "dəyirmi masa"nın materialları nəşr olunub

"Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində Bakı şəhərində keçirilmiş beynəlxalq konfransların materialları bir yerə toplanaraq nəşr olunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzindən AZƏRTAC-a bildirilib ki, məruzələrin ümumi ortaq mövzuya həsr edildiyini və bir-biri ilə əlaqəsini diqqətə çatdırmaq, eləcə də onların daha rahat və asan qavranılmasına nail olmaq məqsədilə nəşrin redaktorları ənənəvi "konfrans materialları" deyil, "dəyirmi masa" modelinə üstünlük veriblər. Bu "dəyirmi masa"nın materialları yaxın vaxtlarda ingilis və rus dillərinə də tərcümə edilərək nəşr olunacaq. Terror multikulturalizmə qarşı layihəsinin ideya müəllifi və rəhbəri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev, elmi redaktorları professor Solmaz Rüstəmova-Tohidi, professor Həcər Verdiyeva, dosent Nigar Gözəlova və məsul katibi fəlsəfə üzrə fəlsəfə doktoru Rəşad İlyasovdur.

Azərbaycanda multikulturalizm həyat tərzi və dövlət siyasətidir. Bu siyasət tarixi inkişaf yolu keçərək, irqi və konfessional-etnik zəmində dünyadakı münaqişələrə qarşı çıxaraq dövlətin əsas siyasi xətlərindən birinə çevrilib. XX əsr qorxu




və zorakılıq daşıyıcısı olan erməni terrorizminin partlayışları ilə yadda qalıb. Öz ağlasığmaz arzularını - Şərqi Anadoluda erməni dövlətçiliyinin formalaşdırılmasını həyata keçirə bilməyən erməni millətçiləri 1918-ci ilin yazında Cənubi Qafqazda və Mərkəzi Asiyada milli və dini zəmində on minlərlə günahsız insanı məhv ediblər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci ilin yanvarında Sərəncam imzalayıb. Daha sonra Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamı ilə bu istiqamətdə bir çox tədbirlər həyata keçirilib. Bu Sərəncama əsasən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi də bir sıra tədbirlər təşkil edib.

Bütövlükdə, BBMM Azərbaycan xalqının çoxəsrlik ənənələri və mədəni-mənəvi dəyərlərinə əsaslanaraq, erməni terroruna qarşı yönəlmiş ciddi layihələr həyata keçirir. Təkcə Azərbaycanın elmi və ictimai-siyasi həyatında deyil, zorakılığa və terrora qarşı çıxış edən digər ölkələrdə də əhəmiyyətli hadisəyə çevrilmiş "Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində iki dəfə beynəlxalq elmi konfrans keçirilib. 2015-ci və 2018-ci illərdə baş tutan I və II beynəlxalq elmi konfranslarda müxtəlif ölkələrin elmi mərkəzlərinin nümayəndələri iştirak ediblər. Tarixçi, hüquqşünas, dinşünas, ədəbiyyatşünas alimlər Azərbaycan, Rusiya, Türkiyə, Gürcüstan, Özbəkistan, Böyük Britaniya, Fransa və Almaniyanın arxiv sənədlərinə istinad edərək terror hadisələrinin, konkret olaraq erməni terrorizminin köklərini və səbəblərini araşdırmaqla bu siyasi-hərbi təhdidin qarşısının alınması üçün onunla beynəlxalq səviyyədə mübarizənin zəruriliyi nəticəsinə gəliblər.

# "Nar"-dan "Samsung Galaxy Note 9" qazanan abunəçi məlum oldu

"Nar" dörd gün davam edən "BakuTel-2018" 24-cü Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisində uğurla iştirak etdi və ən son yeniliklərini nümayiş etdirdi.

Sərgi müddətində mobil operatorun stendi ziyarətçilərin diqqətini cəlb etdi və 4 gün ərzində "Nar" stendini 8 mindən çox insan ziyarət etdi. Mobil operatorun təqdim etdiyi "Nar TV" və "Nar WiFi" ruteri qonaqların böyük marağına səbəb oldu. Sərgi iştirakçıları mobil operatorun ən son məhsulları ilə bilavasitə tanış olmaqla yanaşı, sınaqdan keçirmək fürsəti də qazandılar. Burada, həmçinin maraqlı təqdimatlar keçirildi,




müsabiqələr, müxtəlif yarışmalar və oyunlar təşkil edildi. Maraqlı təqdimatlar və ziyarətçi axını sayəsində "Nar" stendi sərginin "Ən yaxşı korporativ stil" stendi seçilib.

4-7 dekabr 2018-ci il tarixləri arasında Bakı Ekspo Mərkəzində keçirilən sərgi günlərində "Nar" stendində təşkil edilmiş müsabiqələr maraqla qarşılandı. 4 gün ərzində davam edən əsas müsabiqənin qalibi elan olundu. Qalib Sevda İbrahimovaya müasir "Samsung Galaxy Note 9" telefonu hədiyyə edildi.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU